# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 217 (8810) ŞƏNBƏ, 9 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


◆ Zəfərin izi ilə



# Şuşaya zəfər yolu Hadrutdan başladı

## Bir il öncə qələbə ilə bitən hərbi əməliyyat Vətən savaşının ən əhəmiyyətli dönüş mərhələlərindən oldu

**Torpaqlarının işğaldan azad edilməsi üçün savaşa girən Azərbaycan xalqının tarixinin möhtəşəm bir dönəmidir...**

**Bütün cəbhəboyu qanlı döyüşlərin getdiyi 9 oktyabrdır...**

**44 günlük müharibənin 13-cü günüdür...**

**Azərbaycan Ordusu bir çox yaşayış məntəqələri ilə yanaşı, Cəbrayıl şəhərini də işğaldan azad edib. Cəbrayıldan sonra yol artıq Şuşayadır, buna daha şübhə ola bilməz. Bu möhtəşəm şəhərə gedən yol qısaldıqca, Azərbaycan Ordusu hədəfinə daha da yaxınlaşır.**

### Vətən müharibəsinin 13-cü günü

Şuşaya daxil olmaq üçün Hadrut da işğaldan azad edilməlidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən düzgün qurulmuş hərbi strateji plana uyğun olaraq, Azərbaycan Ordusu Hadrutu azad etdikdən sonra Şuşaya doğru istiqamət götürməlidir. Hadrut əməliyyatının uğurlu keçməsi proseslərin sonrakı gedişatını da həll edəcəkdi.

Bu baxımdan Hadrut döyüşlərinin uğurla sona çatması qarşıya qoyulan ən böyük hədəflərdən idi. Nəhayət, müharibənin başlanıldığı ilk gündən heç bir uğursuz əməliyyat keçirməyən Azərbaycan Ordusu növbəti məqsədinə nail olur. Bir necə gün aparılan qanlı döyüşlərin sonu olaraq, oktyabrın 9-da Hadrut Azərbaycan Ordusunun nəzarəti altına keçir.

Çoxdan gözlədiyimiz bu şad xəbəri Ali Baş Komandanımız həmin gün xalqa müraciətində açıqlayır: "Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi. Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir".



Ardı 3-cü səh.

# "Cənub qaz dəhlizi"nin təşəbbüskarı İlham Əliyev, aparıcı qüvvəsi Azərbaycandır!

"Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 illik yubileyi günü Səngəçal terminalında qoyulub. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olub. Cəmi 4 ilə yaxın bir zaman ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır.

"Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirən nəhəng layihədir. Bu dəhliz dörd mühüm seqmenti birləşdirir. Bunlar "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarətdir.

İki ilk seqmentin başa çatdırılması 2018-ci il mayın 29-da layihənin rəsmi açılışını etməyə imkan verdi. Az sonra - iyunun 12-də TANAP da istismara daxil oldu. Sonuncu seqment - TAP isə keçən ilin son günü yekunlaşdı.

Birinci seqment "Şahdəniz"in işlənməsinin ikinci mərhələsini təşkil edir. Gələcəkdə dəhlizlə digər yataqlardan da çıxarılan qazın nəqli həyata keçirilsə belə, hazırda onun əsas ehtiyat mənbəyi məhz "Şahdəniz"dir.

"Şahdəniz" son onilliklərdə dünyada kəşf olunmuş ən böyük və perspektivli karbohidrogen yataqlarından biridir. İlkin hesablamalara görə, onun təxminən 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensat ehtiyatı var.

"Şahdəniz" yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib.

Ardı 5-ci səh.

# Bizə kənar "model" lazım deyil

## Azərbaycandakı sağlam və mütərəqqi dini mühit bütün dünyaya nümunədir

Azərbaycan hüquqi, demokratik və dünyəvi dövlətdir. Dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət-din münasibətləri çox möhkəmdir və sağlam təməllər üzərində qurulub. Bunun nəticəsidir ki, Azərbaycanda müqəddəs dinimiz xalqımızı sıx birləşdirir, həmrəy edir, ölkəmizin inkişafına və möhkəmlənməsinə xidmət edir.

### Mənəvi dəyərlərə ehtiramın təcəssümü

Ölkə rəhbərliyi dövlət-din münasibətlərinə xüsusi diqqətlə yanaşır. Prezident İlham Əliyevin Ramazan və Qurban bayramları münasibətilə xalqımıza təbriklər ünvanlaması, iftar mərasimində iştirak etməsi, o cümlədən bayramlar vaxtı müsəlman dövlətlərinin səfirlərini qəbul etməsi, dindarlarla mütəmadi görüşləri bunu təsdiq edir.

Son illərdə ölkəmizdə həyata keçirilən tikinti-quruculuq və abadlıq işlərinin müqəddəs dini ocaqları əhatə etməsi də sağlam dövlət-din münasibətlərindən irəli gəlir. Bir çox tarixi-dini abidələr, ziyarətgahlar dövlət tərəfindən qısa müddətdə yüksək səviyyədə təmir və bərpa edilib. Bu, dövlətimizin mütərəqqi baxışlarını tam qabarıqlığı ilə əks etdirən sağlam mənəvi durumun təzahürüdür.

Onu da qeyd edək ki, müstəqillik illərində Azərbaycanda məscidlərin sayı artmışdır. Əgər sovet dövründə Azərbaycanda cəmi 17 məscid var idisə, bu gün məscidlərin sayı 2 mini keçib. Bakıda Qafqazda və dünyada ən böyük məscidlərdən biri olan Heydər Əliyev məscidi inşa olunub. Dünyanın ən qədim məscidlərindən biri hesab olunan, 743-cü ildə tikilmiş Şamaxı məscidi 2013-cü ildə yüksək səviyyədə bərpa edilib. O cümlədən Gəncədə İmamzadə kompleksinin təmir edilməsini göstərmək olar.

Azərbaycan dövləti dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirməklə yanaşı, dünyada islam həmrəyliyinin gücləndirilməsi, o cümlədən islam dəyərlərinin müdafiəsi üçün beynəlxalq səviyyədə fəal iş aparır.

Ardı 5-ci səh.

# Prezidentdən xəbərdarlıq:

## Hər hansı təhdid yaransa, dərhal məhv ediləcək

**Azərbaycanın tarixi qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra Cənubi Qafqazda yeni bir reallıq yaranıb.**

Bu reallığın düzgün qiymətləndirilməsi, bölgədə dayanıqlı sülhün, yüksək rifahın, davamlı inkişafın təmin edilməsi üçün indi bütün region dövlətlərinin, eləcə də beynəlxalq qurumların görməli olduqları çox işlər var. Azərbaycan postmüharibə dövründə bu istqamətlərdə üzərinə düşən bütün vəzifələri yerinə yetirir. İşğaldan azad edilmiş ərzilərimizdə bərpa-quruculuq işlərinə başlanıb. Erməni vandallarının 30 il ərzində geniş miqyasda həyata keçirdikləri dağıntılardan sonra bu torpaqlarda müasir infrastruktur qurulur. Məcburi köçkünlərimizin mərhələ-mərhələ öz ata-baba yurdlarına qayıdışı, şəhər və kəndlərimizin normal həyatına dönüşü üçün ardıcıl işlər görülür. Azərbaycan yeni reallıqlar dövründə yaranmış nəqliyyat-kommunikasiya imkanlarından bölgədə marağı olan bütün subyektlərin yararlana bilməsi üçün lazımi addımları atır. Müvafiq layihələr həyata keçirilir. Qarabağdan, Zəngəzurdan keçəcək yollarla dünyanın müxtəlif ölkələri arasında yeni kommunikasiya imkanlarının yaradılması üçün xətlər bərpa olunur. Azərbaycan regionun yeni mənzərəsini, hər bir tərəfin bu mənzərədəki rollarını müəyyən edir. Cənubi Qafqazın inkişafına bölgədəki 6 qonşu ölkənin əməkdaşlığı formatında birgə nail olmaqdan ötrü aktual vəzifələr müəyyənləşdirir.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 27-də Türkiyənin "Anadolu" Agentliyinə verdiyi müsahibə böyük maraq doğurdu.

### Artıq münaqişə həllini tapıb

Müsahibənin ilk suallarında dövlət rəhbərimiz bir il əvvəl, Vətən müharibəsinin başlandığı günlərə tarixi ekskurs etdi. Ermənistanın işğalçı siyasəti, müharibə ərəfəsində Azərbaycana qarşı törətdiyi ardıcıl təxribatlar səbəbindən hərbi əməliyyatların başlanmasını şərtləndirən amilləri əsaslandırdı. Həmçinin təxminən 27 illik fəaliyyəti dövründə münaqişənin həlli istiqamətində ciddi bir nəticə əldə edə bilməyən, işğalçı Ermənistana bununla bağlı təzyiq göstərmək istəməyən, beləliklə, münaqişənin hərbi yolla həllini labüdləşdirən ATƏT-in Minsk qrupunun məsuliyyətini aktuallaşdırdı.

Ardı 4-cü səh.

# Özü yıxılan ağlamaz

## Ermənistan 30 ilə yaxın davam edən işğalçılıq siyasətinin peşmançılığını indi çəkməyə başlayıb

**Postmüharibə dövründə sosial-iqtisadi sahədə üzləşdiyi tənəzzülün miqyası günbəgün artan Ermənistanda əhalinin yoxsullaşması prosesi sürətlənməkdə, insanların maddi problemləri daha kəskin xarakter almaqdadır.**

Buna əsas səbəb hökumətin bir tərəfdən müharibədə aldığı məğlubiyyətdən sonra hələ də özünə gələ bilməməsidirsə, digər tərəfdən ölkənin üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün hər hansı proqram və ya planının olmamasıdır.

Sosial-iqtisadi vəziyyətin daha da pisləşməsi və qarşıdakı dövr ərzində üzləşdiyi çətinliklərin miqyasının bir qədər də genişlənəcəyi gözlənilən Ermənistanda siyasi səhnədə də gərginlik durmadan artır. Belə ki, Litvaya səfəri çərçivəsində baş nazir Nikol Paşinyanın yerli erməni icması ilə görüşü zamanı səsləndirdiyi fikirlər İrəvanda müxalifət tərəfindən ciddi narazılıqla qarşılanıb.

Ardı 6-cı səh.

# Qaydalara əməl edilsə, koronavirusa qalib gəlmək olar

İki ilə yaxındır dünyada tüğyan edən koronavirus pandemiyasının ilk günündən Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən mübarizə tədbirləri sayəsində COVID-19 Azərbaycanda ciddi nəzarət altına alınmışdır.

Dövlət səviyyəsində pandemiya ilə mübarizə, ölkəmizdə insanların sağlamlığına qayğı beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Təsadüfi deyil ki, ötən il Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə kimi dəyərləndirmişdir.



Ardı 6-cı səh.

# Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyanın Baş naziri Eduard Heger ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyaya rəsmi səfəri çərçivəsində ölkənin Baş naziri Eduard Heger ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Slovakiya Respublikasının Baş naziri Milli Məclisin Sədrini salamlayaraq, Azərbaycanın Slovakiya üçün dost ölkə olduğunu vurğulayıb. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. Eduard Heger iqtisadi sahədə əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyini xüsusilə qeyd edib. O, COVID-19 pandemiyasına qarşı mübarizə istiqamətində Slovakiyada görülən işlər və pandemiya ilə bağlı cari vəziyyət barədə Milli Məclisin Sədrinə məlumat verib, Azərbaycanda bu sahədə atılan addımlarla maraqlanıb.

Sahibə Qafarova nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Spiker bu səfərin Azərbaycan Respublikası Milli Məclisinin Sədri səviyyəsində Slovakiyaya ilk səfər olduğunu qeyd edib və ümidvar olduğunu bildirib ki, səfər çərçivəsində keçiriləcək görüşlər və aparılacaq müzakirələr ikitərəfli əlaqələrin, həmçinin parlamentlərarası münasibətlərin inkişafına töhfə verəcək. Parlamentlərarası əlaqələrin hazırkı səviyyəsi haqqında da danışan Milli Məclisin Sədri qeyd edib ki, qanunverici orqanlar arasında əməkdaşlığın inkişafı, qarşılıqlı səfərlərin təşkili Azərbaycanla Slovakiya arasında münasibətlərin inkişafına xidmət edir. İki ölkənin parlamentləri bir sıra beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirlər.

Görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbə haqqında Baş nazirə geniş məlumat verən Spiker Sahibə Qafarova qeyd edib ki, bu zəfər nəticəsində Azərbaycan Ermənistanın işğalı altında olan torpaqlarını azad edərək, həm tarixi ədaləti, həm də ərazi bütövlüyünü bərpa edib. Bununla ölkəmiz BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını öz gücü hesabına həyata keçirib. Hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirdiyini vurğulayan Sahibə Qafarova deyib ki, ölkəmiz Ermənistanın 30 illik işğalı dövründə erməni vandalları tərəfindən tamamilə dağıdılan, məhv edilən şəhər və rayonları, yaşayış məntəqələrini, infrastrukturu, mədəni, tarixi və dini abidələri bərpa edir, yenidən qurur.

Milli Məclisin Sədri həmçinin Ermənistanın bölgədə daimi sülhün və təhlükəsizliyin təmin edilməsinə mane olan təxribatları barədə də məlumat verib. O, Ermənistanın silahlı cinayətkar terrorçu qrupları işğaldan azad olunan ərazilərə göndərməsi, 10 noyabr Bəyanatından sonra saxlanılan terrorçuları hərbi əsirlər kimi təqdim etməyə çalışması, minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etməsi haqqında faktları diqqətə çatdırıb. Spiker xüsusilə vurğulayıb ki, bu günədək Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində 150 nəfər mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb. Bu isə bir daha onu göstərir ki, Ermənistan beynəlxalq humanitar hüququ kobud şəkildə pozmaqda davam edir. Söhbətdə Spiker Sahibə Qafarova Azərbaycanda COVID-19 pandemiyasına qarşı mübarizədə görülən işlər, Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahədə reallaşan beynəlxalq tədbirlər barədə məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Milli Məclisin Sədri Sahibə Qafarova Baş nazir Eduard Hegerə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab hədiyyə edib.

# Boris KOLLAR: "Slovakiya Azərbaycanla münasibətlərin inkişafına mühüm əhəmiyyət verir"





Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyaya rəsmi səfəri çərçivəsində oktyabrın 8-də bu ölkənin Milli Şurasının Sədri Boris Kollarla görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Slovakiya Milli Şurasının Sədri Boris Kollar Azərbaycan Milli Məclisinin Sədrini salamlayaraq, bu səfərin ölkələrimiz və parlamentlər arasında münasibətlərin dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib. O, ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına mühüm əhəmiyyət verdiyini qeyd edərək, parlamentlərarası əlaqələrin daha da inkişafının hər iki tərəf üçün önəmindən danışıb.

Sahibə Qafarova bu səfərin Azərbaycan Respublikası Milli Məclisinin Sədri səviyyəsində Slovakiyaya ilk səfər olduğunu qeyd edib. O, Azərbaycan ilə Slovakiya arasında əlaqələrin ikitərəfli və çoxtərəfli formatlarda inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu söyləyib. Səfər çərçivəsində keçirilən görüşlərin və aparılan müzakirələrin ölkələrimiz arasında ikitərəfli əlaqələrin, həmçinin parlamentlərarası münasibətlərin inkişafına yeni təkan verəcəyinə inandığını bildirib.

Milli Məclisin Sədri Azərbaycanın enerji siyasəti haqqında danışaraq, ölkəmizin Avropanın enerji təhlükəsizliyi arxitekturasında oynadığı rolu xüsusi vurğulayıb. Qeyd edilib ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan layihələr iştirakçı dövlətlərin inkişafına töhfə verməklə yanaşı, Avropaya enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi baxımından da önəmlidir.

Qırx dörd günlük Vətən müharibəsində ölkəmizin qazandığı möhtəşəm Zəfər haqqında danışan S.Qafarova qeyd edib ki, bu Qələbə nəticəsində Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı azad edərək ərazi bütövlüyünü bərpa edib. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücünə yerinə yetirib.

Sahibə Qafarova bildirib ki, Ermənistan tərəfindən törədilən təxribatlar regionda davamlı sülhün təmin olunmasına maneə törədir. O, Ermənistanın silahlı terrorçu dəstələri azad olunan ərazilərə göndərməsi, işğal altında saxladığı ərazilərdə bütün şəhərləri, kəndləri, tarixi və mədəni abidələrimizi, məscidlərimizi dağıtması, milli sərvətlərimizi talan etməsi barədə ətraflı danışıb. Deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Onlar tərəfindən təqdim olunan bəzi xəritələrin dəqiqliyi isə yalnız 25 faizdir. S.Qafarova xüsusi vurğulayıb ki, bu günədək Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində 150 mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb. Beləliklə, Ermənistan insanların həyatı və təhlükəsizliyi üçün ciddi təhlükə yaratmaqda davam edir. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb.

Parlamentlərarası münasibətlərin hazırkı vəziyyəti haqqında da danışan Milli Məclisin Sədri qeyd edib ki, qanunverici orqanlar arasında əlaqələrin inkişafı, qarşılıqlı səfərlərin təşkili Azərbaycan ilə Slovakiya arasında münasibətlərin inkişafına töhfə verir. İki ölkənin parlamentləri bir sıra beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir. Lakin parlamentarilər tərəfindən qəbul olunan qərəzli qərarlar və səsləndirilən qeyri-obyektiv bəyanatlar ikitərəfli əlaqələrə kölgə sala bilər. Sahibə Qafarova xüsusilə ötən ilin noyabrında və 2021-ci il aprelin 1-də Slovakiya Parlamentində qəbul edilən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamənin və "Dağlıq Qarabağ haqqında" adlı qərarın təəssüf doğurduğunu və qəbuledilməz olduğunu bildirib.

Gələn il Azərbaycanda Xocalı soyqırımının 30-cu ildönümünün olacağını diqqətə çatdıran Milli Məclisin Sədri xatırladıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Azərbaycanın Xocalı şəhərində soyqırımı törədərək, 106-sı qadın, 63-ü uşaq və 70-i qoca olmaqla, 613 nəfəri qətlə yetirib, 76-sı uşaq olmaqla, 487 nəfər ağır yaralanıb. Həmçinin 8 ailə tamamilə məhv edilib. Bu insanlar yalnız etnik mənsubiyyətinə görə öldürülüb və işgəncəyə məruz qalıblar. Artıq bir sıra ölkələrin parlamentləri və bəzi beynəlxalq təşkilatlar tərəfindən insanlığa qarşı törədilmiş bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul olunduğunu xatırladan S.Qafarova ümidvar olduğunu bildirib ki, slovakiyalı parlamentarilər də bu qətliamı tanımaq üçün prosesə başlayacaqlar.

Görüşdə Milli Məclisin komitə sədri Zahid Oruc və Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov çıxış edərək iki ölkə arasında münasibətlərin inkişafında parlamentlərin rolu, qanunverici orqanlar arasında əməkdaşlığın inkişafının əhəmiyyəti barədə fikirlərini bildiriblər.

# Azərbaycan və Slovakiya spikerlərinin birgə brifinqi keçirilib

Oktyabrın 8-də Milli Məclisin Sədri Sahibə Qafarovanın Slovakiyaya rəsmi səfəri çərçivəsində Azərbaycan və Slovakiya spikerlərinin görüşündən sonra birgə brifinqi keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Sədri Azərbaycan parlament nümayəndə heyətinin Slovakiyaya səfərinin uğurla davam etdiyini deyib.

"Bu səfər Milli Məclisin Sədri səviyyəsində Slovakiyaya ilk rəsmi səfərdir. Səfər müddətində Slovakiya Respublikasının Baş naziri Eduard Hegerlə və Milli Şuranın Sədri Boris Kollarla konstruktiv görüşlər oldu və proqrama uyğun olaraq görüşlər davam edir. Keçirilən görüşlərdə Azərbaycan-Slovakiya münasibətləri parlament müstəvisində müzakirə olundu, ikitərəfli və çoxtərəfli formatda əlaqələrimizin daha da dərinləşdirilməsi barədə fikirlərimizi bölüşdük", - deyə Sahibə Qafarova vurğulayıb.

Milli Məclisin Sədri jurnalistlərin diqqətinə çatdırıb ki, Azərbaycan Avropa İttifaqı ölkələrindən biri olan Slovakiya ilə əlaqələrin inkişafında maraqlıdır. O, Milli Şuranın Sədri Boris Kollarla görüşündə qarşılıqlı səfərlər, qanunvericilik sahəsində təcrübə mübadiləsi barədə fikirlərini bölüşdüklərini deyib.



Spiker nəzərə çatdırıb ki, parlamentlərarası münasibətlərin inkişafı xalqlarımızın daha da yaxınlaşmasına, Azərbaycan həqiqətlərinin Slovakiya ictimaiyyətinə, Slovakiyada baş verən proseslərin Azərbaycan ictimaiyyətinə obyektiv çatdırılmasında əhəmiyyətli rol oynaya bilər. O, parlamentlərarası münasibətlərin dərinləşməsinin ölkələrimiz arasında da əlaqələrin yüksələn xətlə inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Milli Məclisin Sədri qeyd edib ki, keçirilən görüşlərdə Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyət barədə həmsöhbətlərinə məlumat verib. Vurğulayıb ki, bu müharibə nəticəsində Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazi bütövlüyünü bərpa edib. Spiker həmçinin Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi Xocalı soyqırımının 30 illiyi ərəfəsində insanlığa qarşı törədilmiş bu cinayətə Slovakiya Parlamentinin də münasibət bildirməsi barədə istəklərini bölüşdüyünü qeyd edib.

# Vahid əlaqələndirmə mərkəzləri üzrə komissiyanın iclası olub

Şəhid ailələri üzvlərinin, müharibədə xəsarət almış hərbi qulluqçuların və müharibə əlillərinin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərlə bağlı qurumların fəaliyyətinin əlaqələndirilməsi üçün yaradılmış Əlaqələndirmə komissiyasının iclası keçirilib.



Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin sədrlik etdiyi komissiyada vahid əlaqələndirmə mərkəzlərində 26 istiqamətdə xidmət göstərən 19 dövlət orqanı (6 mərkəzi icra hakimiyyəti, 13 yerli icra hakimiyyəti orqanı) təmsil olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, S.Babayev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfərlə başa çatdırdığı Vətən müharibəsindən sonra şəhid ailələrinin və qazilərin geniş sosial dəstək proqramı ilə əhatə olunduqlarını vurğulayıb. Dövlət başçısının 2021-ci il 25 iyun tarixli Fərmanına əsasən, vahid əlaqələndirmə mərkəzlərinin yaradılmasının şəhid ailələri və qazilərə yüksək diqqət və qayğının daha bir təzahürü olduğunu qeyd edib. Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyadan olan vətəndaşlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, müalicə, müayinə və s. üzrə xidmətlərin vahid məkandan, operativ, şəffaf, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstərilməsinin mühüm dəstək tədbirlərindən biri olduğunu bildirib.

İclasda vahid əlaqələndirmə mərkəzlərinin yaradılması işlərinə və bu mərkəzlərdə müraciətlərin qəbulu, həmin müraciətlərdə əksini tapan məsələlərin aidiyyəti qurumlarla birgə əlaqəli şəkildə operativ həlli istiqamətində aparılan işlərə dair təqdimat edilib.

Qeyd olunub ki, vahid əlaqələndirmə mərkəzlərində xidmətlər göstərəcək qurumların rəhbər şəxslərinə həmin mərkəzlər barədə təqdimatlar edilməklə onlara ətraflı məlumatlar verilib. Nazirlik tərəfindən bu mərkəzlərdə dövlət orqanları tərəfindən göstərilən xidmətlər üzrə pasportlar hazırlanaraq, aidiyyəti üzrə razılaşdırılıb. Vahid əlaqələndirmə mərkəzlərində təmsil olunan dövlət qurumlarının əməkdaşları DOST Agentliyində təlimlərə cəlb olunub, DOST mərkəzlərində onların xidmətlər göstərmələri üçün zəruri şərait yaradılıb. Xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə, informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçirilir. Xidmət göstərən qurumların elektron informasiya sistemləri arasında əlaqələndirmə də təmin edilib. DOST mərkəzlərində avqustun 23-dən fəaliyyət göstərən vahid əlaqələndirmə mərkəzlərində indiyədək Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, həmin müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 1461 nəfər (o cümlədən "142" Çağrı mərkəzi vasitəsilə 155 müraciət) qəbul edilib.

İclasda ölkəmizin regionlarında da vahid əlaqələndirmə mərkəzlərinin qurulması işlərinin aparıldığı diqqətə çatdırılıb. Qeyd edilən mərkəzlərdə göstərilən xidmətlərlə bağlı qurumların fəaliyyətinin əlaqələndirilməsi sahəsində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

***"Azərbaycan"***

# Təhsillə bağlı iki qanun layihəsi müzakirə olunmaq üçün plenar iclasa tövsiyə edilib

Oktyabrın 8-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, gündəlik barədə məlumat verən komitənin sədri Bəxtiyar Əliyev birinci oxunuşda komitənin müzakirəsinə çıxarılan "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin mahiyyət etibarilə bir-birini tamamladığını qeyd edib. O, sənədlərdə subbakalavr və ali təhsil pillələri üzrə tədrisin təşkilində kredit sisteminin tətbiqinin qanunla təsbit edilməsinin təhsilimizi Avropa Kredit Transfer Sisteminə uyğunlaşdırdığını, bununla da diplomların akademik elmi dərəcəsinin tanınmasının asanlaşdığını bildirib.

Sonra qanun layihələrini təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev təklif olunan dəyişikliklərin və əlavələrin qanunvericilikdəki hüquqi empirik bazası haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, mövcud qanunvericilikdə yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulub, həmçinin onların ali təhsil müəssisələrinə qəbul olmaq hüququ müəyyən edilib. Bu kontekstdə təklif olunan dəyişikliklərdə təhsilin subbakalavr səviyyəsində (orta ixtisas təhsili və yüksək texniki peşə təhsili) tədrisin kredit sistemi ilə təşkil olunması, subbakalavrların topladıqları kreditlərin bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınması təklif edilib. Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, komitənin sədr müavini Musa Qasımlı, komitə üzvləri Etibar Əliyev, Eldar Quliyev, Pərvin Kərimzadə, Kamilə Əliyeva müzakirə edilən layihələrlə bağlı öz fikirlərini bildiriblər. Təklif olunan dəyişikliklərdə subbakalavrlara tam orta təhsil almaq hüququnun verilməsini və onların təhsilin növbəti mərhələsi olan bakalavriat səviyyəsinə keçidinin asanlaşdırılmasını təqdirlə qarşılayıblar. Bu dəyişikliklərin vətəndaşların təhsil hüquqlarını, seçim imkanlarını, ali təhsilə əlçatanlığını genişləndirəcəyini, təhsildə fasiləsizliyi təmin edəcəyini bildiriblər. Sənədlərdə subbakalavriat səviyyəsi üzrə ixtisas proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğunun təmin edilməsinin nəzərdə tutulmasını isə subbakalavrlara ali təhsil pilləsində təhsili tez başa vurmaq imkanları yaratdığı qeyd edilib. Deputatlar dəyişikliklərin peşə təhsilinə marağı artıracağını və onun inkişafına xidmət edəcəyini bildirməklə, peşə təhsilində əmək bazarının tələblərinin və gələcəyin ehtiyaclarının nəzərə alınmasının vacibliyini də qeyd ediblər.

Deputatlar hər iki qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər. Onlayn iclasda Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri Ülviyyə Ağayeva, Tamam Cəfərova, Rafael Hüseynov, Anar İsgəndərov, Aqiyə Naxçıvanlı, Şahin Seyidzadə, Fatma Yıldırım, Milli Məclisin Aparatı rəhbərinin müavini Yaşar Əməşov və digər rəsmi şəxslər də iştirak ediblər.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



◆ Zəfərin izi ilə

# Şuşaya zəfər yolu Hadrutdan başladı

## Bir il öncə qələbə ilə bitən hərbi əməliyyat Vətən savaşının ən əhəmiyyətli dönüş mərhələlərindən oldu














*Əvvəli 1-ci səh.*

Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etməyin önəmli olduğunu açıqlayan Prezident İlham Əliyev bu qəsəbənin işğaldan azad edilməsini böyük əhəmiyyətə malik olan bir əməliyyat adlandırdı. Müharibədən sonra bu barədə danışan dövlət başçısı bildirib ki, Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi: “Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir - oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik. Şuşaya istiqamət götürmək üçün məhz Hadrutun azad edilməsi önəmli olub”.

### İki çayın arasında yerləşən strateji əhəmiyyətli qəsəbə

Hadrut qəsəbəsi hələ sovet dövründən erməniləşdirilməsinə cəhd göstərilən ərazilərimizdən olub. Keçmiş SSRİ-nin ermənipərəst rəhbər şəxslərinin apardığı siyasət nəticəsində burada yaşayan əhalinin tərkibində ermənilərin çoxluq təşkil etməsinə çalışılıb. 1988-ci ildə azərbaycanlılar yalnız Ermənistandan qovulmayıblar. Tarixi torpaqlarında yaşayan soydaşlarımız həmin ildə hətta suveren Azərbaycan dövlətinin ərazisinə daxil olan Qarabağdan da zorla qovulurdular ki, bu ərazilərin arasında Hadrut da olub.

Milli Məclis yanında Toponomiya Komissiyasının üzvü, coğrafiya üzrə fəlsəfə doktoru Mahirə Abbasova deyir ki, Hadrut erməniləşdirilmiş və ya erməni mənşəli toponim deyil. Azərbaycan dilində fars dilindən alınma sözlər əsasında formalaşmış toponimlərin olduğunu açıqlayan alim Hadrutun da belə yer adlarından biri olduğunu söyləyir. Onun sözlərinə görə, Hadrut sözü ha (ara), dü (iki) və rud (çay) sözlərindən əmələ gəlib ki, fars dilində bu, “iki çayın arası” mənasını verir: “Fars mənşəli bir çox sözlər artıq Azəraycan dilində özünə tam olaraq yer tapıb. Hadrut sözündə olan “rud” sözü talış bölgəsində hələ də çay mənasında işlənilir”.

M.Abbasova əlavə edir ki, Hadrut 1923-cü ilədək Ağoğlan, 1923-cü ildən 1939-cu ilədək Dizaq adlandırılıb. 1939-cu ildən bu yaşayış ərazisi yerləşdiyi coğrafi mövqeyə uyğun olaraq Hadrut adlandırılıb.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elman Məmmədov bildirir ki, Hadrut Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində mövcud olan ayrıca rayon olub. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilib: “Həmin tarixdən Azərbaycanda Dağlıq Qarabağ Muxtar Vilayəti adında ərazi olmayıb. Azərbaycan Prezidenti İlham Əliyev də “belə bir ərazi vahidi yoxdur” deyərək bu məsələyə nöqtə qoyub. 1991-ci ildən Hadrut rayonu ilə Martuni rayonu birləşdirilərək onların yerində mərkəzi Xocavənd şəhəri olmaqla, Xocavənd rayonu yaradılıb. Hadrut deyilən qəsəbə hazırda Xocavənd rayonunun tərkib hissəsidir”.

E.Məmmədovun sözlərinə görə, Hadrutdakı bütün abidələr, yer adları, ötən əsrlərdən bizə ötürülən nişanələr ona dəlalət edir ki, bu yerlər Azərbaycan Ordusunun işğaldan azad etdiyi digər ərazilər kimi qədim türk tayfalarının, yəni azərbaycanlıların yaşadığı torpaqlardır. Ermənilər Qarabağın başqa ərazilərində olduğu kimi, buraya da sonradan İrandan, Türkiyədən və s. yerlərdən köçürülərək məskunlaşdırılıblar.

E.Məmmədov qeyd edir ki, 150 il əvvəl İrəvan xanlığında yaşayan ermənilərin sayı barmaqla sayılacaq qədər az olub. Ancaq sonrakı köçürülmələr, çar Rusiyası və erməni kilsəsinin apardığı siyasət nəticəsində Hadrutda yaşayan ermənilərin sayı tədricən artmağa, azərbaycanlıların sayı isə azalmağa başlayıb.

Qəsəbənin 1992-ci ildə Ermənistan tərəfindən işğal edildiyini xatırladan E.Məmmədov qeyd edir ki, Vətən müharibəsi dövründə Hadrut əməliyyatına xüsusi önəm verilib. Hadrutun işğaldan azad edilməsi çox güclü, dəqiq hazırlanmış hərbi əməliyyat nəticəsində mümkün olub: “Dağlıq ərazi olan Hadrut Qarabağın cənub hissəsində yerləşməklə kifayət qədər böyük sahəni əhatə edir. Onun bir tərəfi Xocavənd, Füzuli, Cəbrayıl, bir tərəfi isə Xocalı rayonudur. Hadrutun həm də Şuşa ilə sərhədləri var. Ermənilərin Hadrutda möhkəmləndirilmiş səngər istehkam qurğuları var idi. Onlar 30 il ərzində burada müdafiə sistemlərini çox möhkəmləndirmişdilər. Azərbaycan Ordusu Ali Baş Komandanının rəhbərliyi altında Hadrutda çox güclü hərbi əməliyyatlar keçirməklə bu tarixi torpağımızı erməni işğalından azad etdi”.

### Qarabağın dağlıq hissəsinin işğaldan azad edilməsinin başlanğıcı

Vətən müharibəsində dönüş yaradan Hadrut əməliyyatı düşmənin mövqelərini ciddi şəkildə sarsıtmaqla yanaşı, Azərbaycanın irəliyə doğru daha sürətlə getməsinə imkan yaratdı. Hadrut əməliyyatının dünyanın hərb elmində xüsusi yer tutacağını deyən Ali Baş Komandan İlham Əliyev Hadrutun azad edilməsini belə təsvir edir: “Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olub. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi".

Ermənilər Hadrut əməliyyatının II Qarabağ müharibəsinin ən əsas əməliyyatlarından biri olduğunu başa düşdükləri üçün bu ərazinin azad edilməsini öz cəmiyyətlərindən hər vəchlə gizlətməyə çalışırdılar. Hadrut Azərbaycan Ordusunun nəzarəti altına keçdikdən sonra belə, ermənilər bu qəsəbənin hələ də onların nəzarəti altında olması ilə bağlı feyk məlumatlar paylaşırdılar. Ən qəribəsi isə həmin saxta məlumatların Ermənistan rəsmiləri tərəfindən təsdiqlənməsi idi.

Dövlətimizin başçısı Hadrutun işğaldan azad edildiyini açıqladığı zaman əslində həm də Ermənistanın aldadılan cəmiyyətini, özlərinin rəsmi şəxslərindən daha çox Azərbaycanın Ali Baş Komandanının açıqladığı məlumatlardan həqiqətləri öyrənən insanları baş verənlərdən xəbərdar edirdi: “Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır. Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir”.

Bu ilin martında Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldıran Ali Baş Komandan İlham Əliyev Ermənistan rəhbərliyinin bu addımının səbəbini başa düşə bilmədiyini söyləyib: “Artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir”.

Deputat Elman Məmmədov hesab edir ki, Hadrut əməliyyatının uğurla başa çatması Ali Baş Komandanın, Azərbaycan hərbçilərinin çox yüksək səviyyədə hərbi biliyə malik olmasının, əməliyyatların zərgər dəqiqliyi ilə hazırlanaraq həyata keçirilməsinin nəticəsidir. Deputat Hadrut uğrunda aparılan döyüşləri çox gərgin, hərb tarixində böyük əhəmiyyətə malik olan döyüşlərdən biri kimi qiymətləndirir: “Bu ərazilərin hamısının müdafiəsi ermənilər tərəfindən gücləndirilmişdi. Buna görə də həmin əməliyyatlar çox böyük ustalıqla hazırlanıb həyata keçirildi. Ermənilər belə əməliyyatları hec gözləmirdilər. Onlar Hadruta da hücumu Xocavənd istiqamətindən gözləyirdilər. Ancaq zərbə tamamilə başqa istiqamətdən - Füzuli, Cəbrayıl istiqamətindən vuruldu. Başqa sözlə, belə deyə bilərik ki, düşmənin yanından keçib ona arxasından zərbə vuruldu və o darmadığın edildi. Bu səbəbdən Hadrut əməliyyatının hərb elmində çox böyük əhəmiyyəti var və bu əməliyyat çox yüksək dəyərləndirilir”.

Hərbi ekspert, mayor Ədalət Verdiyev bildirir ki, oktyabrın 4-də Azərbaycan Ordusu tərəfindən Cəbrayıl şəhərinin və onun bir çox kəndlərinin işğaldan azad edilməsi həm Qarabağ ərazisində, həm də ətraf rayonlar istiqamətində daha genişmiqyaslı döyüş əməliyyatlarının keçirilməsinə münbit şərait yaratdı. Hadrut qəsəbəsi Azərbaycan Ordusu tərəfindən azad edilən, Qarabağın dağlıq hissəsinə aid olan ilk yaşayış məntəqəsi kimi Vətən müharibəsi tarixində yaddaşlara yazıldı. Hadrutun azad edilməsi Qarabağın dağlıq hissəsinin işğaldan azad edilməsinin başlanğıcı oldu.

Ekspert xatırladır ki, Hadrut uğrunda döyüşlər təxminən on günə yaxın davam etdi. Oktyabrın 7-dən artıq ağır artilleriya vasitələri, uzaq mənzilli toplar və PUA-ların aktiv istifadəsi nəticəsində Hadrut ətrafında olan düşmən mövqeləri Azərbaycan Ordusunun intensiv zərbələrinə məruz qalırdı: “Məlumdur ki, Cəbrayılda azad edilən ərazilər qismən düzənlik hissədə yerləşirdi. Buna görə Hadrutun azad edilməsi həm də Azərbaycan Ordusunun mövqelərinin atəş altından çıxarılması istiqamətində məqsədyönlü bir addım idi. Cəbrayılın azad olunmasından sonra düşmən Füzuliyə daha yaxın olduğumuzu fikirləşərək Azərbaycan Ordusunun hücumlarını Füzuli tərəfdən gözləyirdi. Ancaq Azərbaycan Ordusu Hadruta ermənilərin gözləmədiyi istiqamətdən - Cəbrayıldan hücum etdi”.

Ə.Verdiyev açıqlayır ki, Azərbaycan Ordusunun xüsusi təyinatlı qrupları Hadrutun azad edilməsindən bir necə gün əvvəl artıq Hadrutda müdafiə olunan düşmənin mövqelərinin dərinliklərinə sızaraq orada xüsusi əməliyyatlar həyata keçirməyə nail ola bilmişdilər. Məhz bu əməliyyatlar nəticəsində düşmənin müdafiəsində müəyyən boşluqlar müşahidə edilməyə başladı. Hadrutun azad edilməsinə qədər Azərbaycan Ordusu düşmənin 16 komanda məntəqəsini, 196 tankını, 38 BM-21-i, 1 “Uraqan”ı, 10 özüyeriyən artilleriya qurğusunu, 36 ədəd piyadaların döyüş maşınını, 24 ədəd artilleriya batareyasını, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsini, 2 ədəd “S-300” kompleksinin buraxıcı qurğusunu, 25 OSA zenit-raket kompleksini, 2 KUB zenit-raket kompleksini, 4 “Repelend” radio-texniki maneə vasitəsini, 136 topunu, 56 minaatanını, 1 TOS-1A odsaçan sursatını, 2 radiolakasiya stansiyasını, 1 “Kalçuqa” anteni sıradan çıxarmışdı.

Bütün bunlar Hadrut istiqamətində düşmənin müdafiəsinin kifayət qədər zəifləməsi ilə nəticələnmişdi: “Başqa bir tərəfdən isə, Hadrut hərbi hissənin qərargahının və silah-sursat anbarının yerləşdiyi bir ərazi idi. Bu anbar orada daha əvvəldən - sovet dövründən mövcud idi. Həmin anbardan Ermənistan ordusu Azərbaycana qarşı döyüşən bölmələrin təminat və təchizatı üçün istifadə edirdi. Nəticə etibarilə Hadrutun işğaldan azad edilməsi düşmənin həm də başqa istiqamətlərdə müqavimətinin zəifləməsinə, ordumuzun digər ərazilərə qismən daha az itki, yüksək hücum tempi ilə azad etməsinə şərait yaratdı. Başqa sözlə desək, Hadrutun işğaldan azad edilməsi və Hadrut ətrafındakı yüksəkliklərin ordumuzun nəzarətinə keçməsi Füzuli istiqamətində qoşunlarımızın daha inamla irəliləməsi imkanını genişləndirdi. Paralel olaraq, Azərbaycan Ordusu Hadrutun azad edilməsindən sonra hücum cəbhəsini daha da genişləndirmək üçün imkan əldə etdi. Təbii ki, Hadrutun Qarabağın dağlıq ərazisinə daxil olduğu və ermənilərin buranın geri qaytarılmasına heç vaxt razılaşmadıqları nəzərə alınarsa, bu ərazinin ordumuzun nəzarətinə keçməsi həm də “Dağlıq Qarabağ” seperatçı rejiminin tutduğu ərazilərin Azərbaycanın nəzarətinə keçməsi, “Böyük Ermənistan” ideyasının tarixə qovuşmasının bir başlanğıcı hesab olunardı”.

Ə.Verdiyev bildirir ki, Hadrutun azad edilməsindən sonra ordumuz tərəfindən 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 “İqla” kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını qənimət kimi götürüldü. Bu sursat və texnikaların əksəriyyəti düşmən tərəfindən məhz Hadrutun müdafiəsi zamanı istifadə edilmişdi. Lakin onlar daha sonra düşmənin özünə qarşı hücumlarda istifadə edildi.

### Hadrutun iqtisadi aktivliyini qısa zamanda bərpa etmək mümkün olacaq

Strateji əhəmiyyət daşıyan Hadrut, eyni zamanda, böyük iqtisadi potensiala malikdir. 1876,8 kvadratkilometr sahəsi olan Hadrut qəsəbəsinin imkanları buranı Qarabağın böyük iqtisadi və turizm potensialı ilə seçilən ərazilərindən biri etməyə imkan verir.

AMEA Coğrafiya İnstitutunun direktoru, coğrafiya elmləri doktoru Zakir Eminov bildirir ki, əvvəllər Hadrut qəsəbəsində üzüm emalı zavodu, xalça sexi fəaliyyət göstərib. Qəsəbənin və onun ətrafında yerləşən yaşayış məntəqələrinin təsərrüfatının bərpa edilməsi və əhalinin yenidən məskunlaşması üçün burada təbii-coğrafi şəraitə uyğun olan kənd təsərrüfatı sahələrinin yaradılması tələb olunur. Bunlara, ilk növbədə, üzümçülük, taxılçılıq, meyvəçilik və heyvandarlıq sahələri aiddir. Bu sahələrdə yüksək nəticələrin əldə edilməsi üçün məhsuldar növlərin tətbiq edilməsi tələb olunur. Belə nəticələr isə xüsusi olaraq tətbiq edilən “Aqroparklarda” mümkün olur. Ayrı-ayrı sahələr üzrə ixtisaslaşmış təsərrüfatların təşkili kənd təsərrüfatında məhsuldarlığın artırılmasına imkan verər.

Z.Eminov Hadrutun turizm imkanlarının da geniş olduğunu söyləyir. Onun sözlərinə görə, qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidələr, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlardan faydalanma qəsəbədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir. Alimin fikrincə, onlardan istifadə üçün infrastruktur şəbəkəsi yaradılması vacibdir.

Milli Məclisin deputatı Vüqar Bayramov deyir ki, Hadrut qəsəbəsi kənd təsərrüfatının fərqli sahələrinin inkişafına şərait yaradır. Bura Qafqazda qış, yay, müalicəvi, tarixi, dini turizm imkanları ilə seçilən bölgələrdəndir. Böyük turizm potensialının mövcudluğu Hadruta qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcək. Kənd təsərrüfatına yararlı torpaqları çox olan Hadrutda heyvandarlığın inkişafı üçün geniş imkanlar var. Bununla yanaşı, burada aqrar sektorun fərqli sahələrinin inkişafı üçün potensial mövcuddur.

V.Bayramov qeyd edir ki, uzun müddət baxımsız qalan Hadrut öz tarixinin yeni və şərəfli mərhələsinə qədəm qoyur. Hazırda inşa edilən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu işğaldan azad olunan bu qəsəbənin iqtisadi potensialından istifadəyə imkan verəcək. Bu yol başlanğıcını Azərbaycanın tarixi ərazisi olan Qarabağdan, yəni Hadrut yaşayış məntəqəsindən götürəcək və işğaldan azad olunan digər bölgələri birləşdirəcək. Belə ki, dörd hərəkət zolaqlı yol Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndinədək uzanacaq. Digər tərəfdən, yeni yol Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcək. Praktik olaraq, Hadrut Zəngəzur dəhlizi vasitəsilə Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunacaq: “Bu isə ondan xəbər verir ki, Hadrutda formalaşacaq iqtisadiyyat və istehsal ediləcək məhsullar daha geniş bazarlara çıxarıla biləcək. Bütövlükdə Hadrut potensial baxımdan Qarabağ iqtisadiyyatında xüsusi paya malik olacaq”.

Prezident İlham Əliyevin Hadrutun azad edilməsindən sonra söylədiyi “Hadrut qəsəbəsində qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb” fikirləri ermənilərlə azərbaycanlıların davranışları, əməlləri arasındakı fərqin ən mükəmməl formada nəzərə çatdırılmasıdır.

İşğaldan azad edilmiş şəhərləri, kəndləri, tarixi abidələri, məscidləri, qəbirləri dağıdılan Azərbaycan ona qarşı törədilən misli görünməmiş bu vandallıqdan sonra da Hadrutda ermənilərin yaşadıqları evlərlə onlar kimi davranmaq fikrində olmadı. Əraziyə səfər edən bəzi xarici KİV nümayəndələri də bu vəziyyətin şahidi oldular. Rusiyanın “İzvestiya” qəzetində dərc olunan məqalədə qəsəbədə müharibə bitdikdən sonra hər şeyin toxunulmaz qaldığı yazılmışdır. Müəllif hətta azərbaycanlı hərbçilərin buradakı erməni kilsəsini də dağıtmadığını xüsusi qeyd edir.

Əslində, Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir zaman abidələrin başqa millətlərə məxsus olmasına görə dağıdılması təcrübəsi qeydə alınmayıb. Hər zaman başqa millətlərə, onların dəyərlərinə, maddi mədəniyyət nümunələrinə hörmətlə yanaşan Azərbaycan dövlətinin Bakıdakı erməni kilsəsini belə bir abidə kimi qoruyub saxlaması onun başqa dinlərə verdiyi dəyərin ən yüksək nümunəsidir. Lakin məsələ ondadır ki, azərbaycanlıların ən qədim insan məskənlərindən biri hesab olunan, tamamilə türk mənşəli oronomik toponimlərə sahib olan Hadrutda erməni kilsəsi deyilən bir abidə yoxdur.

Mədəni dəyərlər üzrə tədqiqatçı ekspert, Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin professoru, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü Faiq İsmayılov bildirir ki, nəinki Hadrutda, bütöv Qarabağda belə erməni kilsəsi mövcud deyil. Qarabağda mövcud olan bütün abidələr alban mədəniyyətinə aiddir.

Professor əlavə edir ki, Hadrut da daxil olmaqla, Qarabağ bölgəsi bir çox monastır kompleksləri, məbədlər, qədim yaşayış məskənləri, qalalar ilə məşhur olduğu üçün bura açıq muzey sayıla bilər. Lakin ermənilər işğal dövründə bütün bu abidələri özününküləşdirməyə, o cümlədən Hadrutdakı məbədi də erməniləşdirməyə çalışıblar.

Ermənilər işğal dövründə təkcə tarixi abidələrimizi deyil, həm də torpaqlarımızı özününküləşdirməyə çalışmaqla Azərbaycan ərazisində yeni bir erməni dövləti yaratmağa cəhd göstərdi. Lakin Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan vermədi və bundan sonra da verməyəcəyik. Bu mesaj bu gün ermənilərə həm də Vətən müharibəsində düşmənin qorxulu yuxusuna çevrilən qəhrəman Azərbaycan əsgərinin və dronların təsvirinin “dəmir yumruq” abidəsində rəmziləşdirildiyi məkan olan Hadrutdan ötürülür.

*Azərbaycanın xalq-ordu birliyini təcəssüm etdirən bu abidə qələbəyə məhz möhkəm birləşmiş “dəmir yumruq” sayəsində nail olduğumuzu göstərməklə yanaşı, həm də düşmənin yadına “dəmir yumruğ”un gücünü, yenidən işğalçılıq niyyətinə düşəcəkləri halda, bu yumruğun yerində olduğunu, onun bu dəfə işğalçıların başına daha böyük zərblə dəyəcəyini xatırladır.*

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



Əvvəli 1-ci səh.

Həqiqətən, Qələbədən və Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən ötən bir il ərzində ATƏT-in Minsk qrupunun 27 illik fəaliyyətinin səmərəsizliyi indi daha aydın görünür. BMT-nin Təhlükəsizlik Şurasının 3 aparıcı üzvünün iştirakı ilə yaradılmış bu qrupun onilliklər ərzində edə bilmədiyini Azərbaycan hərbi yolla cəmi 44 gün içində bacardı. Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə hücuma keçib bir neçə strateji yaşayış məntəqimizi, o cümlədən Şuşanı düşməndən azad etdikdən sonra Ermənistan rəhbərliyi kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Torpaqlarımızın böyük bir hissəsi - Ağdam, Kəlbəcər, Laçın bir güllə də açılmadan boşaldıldı. İşğalçılar bu ərazilərdən çıxmalı oldular. Minsk qrupu Azərbaycanın haqlı tələblərini nəzərə alaraq Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, tələbləri yerinə yetirməyəcəyi təqdirdə sanksiyalar tətbiq etsəydi, düşmən ölkə müharibəsiz də işğal edilmiş torpaqlardan çıxacaqdı. Bu halda hər iki tərəfdən insan itkilərinə, müharibənin vurduğu yaralara ehtiyac qalmayacaqdı.

Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupu öz missiyasını layiqincə yerinə yetirmək əvəzinə, "nə hərb, nə sülh" prinsipi ilə müşahidəçi mövqe tutdu. Bu baxımdan, İkinci Qarabağ müharibəsinin başlanmasına görə ən böyük məsuliyyət daşıyan Ermənistanla yanaşı, işğalçı ölkəni vaxtında dayandırmayan, onun təcavüzkar addımlarına göz yuman böyük dövlətlərin də məsuliyyət payı var. Reallıq budur ki, Azərbaycan münaqişənin qan tökülmədən sülh yolu ilə həlli üçün bütün imkanlardan istifadə etdi. Bununla yanaşı, ölkə rəhbərimiz hər zaman bəyan edirdi ki, Azərbaycan qarşı tərəfin status-kvonu qorumaq cəhdləri ilə barışmayacaq, torpaqlarımızı nəyin bahasına olursa-olsun işğaldan azad edəcək. Prezident İlham Əliyev hər zaman dediklərinin üstündə dayandığı kimi, bu sözünü də tutdu. Azərbaycan beynəlxalq hüquq normalarının verdiyi imkanlar çərçivəsində işğalçıya qarşı haqq savaşı apardı və torpaqlarının düşməndən təmizlənməsinə nail oldu.

Artıq münaqişə həllini tapıb. Azərbaycan Müzəffər Ordumuzun gücü ilə bu məsələni yoluna qoyub. Artıq "Dağlıq Qarabağ" adlı inzibati ərazi, qurum mövcud deyil. Bu günlərdə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının sessiyasındakı çıxışında da bütün ölkələrə müraciət edərək xahişini yetirdi ki, daha bundan sonra "Dağlıq Qarabağ" ifadəsi işlədilməsin: *"Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var. Belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır".*

### Ermənistan öhdəliklərini yerinə yetirməlidir

Münaqişənin həllindən sonra indi qarşılıqlı etimad tədbirlərinin həyata keçirilməsi, ardınca yolların, dəhlizlərin açılması, sülh prosesinin dəstəklənməsi, Ermənistan-Azərbaycan əlaqələrinin tənzimlənməsi, Azərbaycanın təklif etdiyi sülh müqaviləsinin imzalanması aktual məsələlər kimi qarşıda durur. Minsk qrupunun bundan sonrakı fəaliyyəti də məhz bu istiqamətlərdə olmalıdır. Azərbaycan Prezidenti "Anadolu" Agentliyinə müsahibəsində ara-sıra müəyyən məkrli qüvvələrin gündəmə gətirmək istədikləri status məsələsi ilə bağlı da qəti mövqeyini bir daha ortaya qoydu: *"Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə "Dağlıq Qarabağ"a status vermək istəyirsə, öz ölkəsində bir ərazi versin, orada bir qurum yaratsın, ya cümhuriyyət yaratsın, onların müstəqilliyini tanısın, biz də tanıyaq. Amma Azərbaycan ərazisində yox!"*

Hazırda 10 noyabr üçtərəfli Bəyanatının şərtlərinə uyğun olaraq erməni hərbi qüvvələrinin sülhməramlıların nəzarətindəki Azərbaycan ərazilərindən çıxması ən önəmli məsələlərdəndir. Azərbaycan Prezidenti bununla bağlı da qətiyyətli mövqeyini bir daha ifadə etdi. Eyni zamanda dəhlizlərin açılması məsələsinin də həll edilməli olduğunu bildirdi. Məlum olduğu kimi, 10 noyabr Bəyanatının müvafiq müddəasına əsasən, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı təmin edilməlidir. Ermənistan bununla əlaqədar üzərinə öhdəlik götürüb. Bu şərtin təmin edilməsi üçün 40 kilometr uzunluqda yolun açılmasından söhbət gedir. Amma bu istiqamətdə aparılan müzakirələr hələlik nəticəsizdir, Ermənistan 10 noyabr Bəyanatının şərtlərini kobudcasına pozur. Azərbaycan Prezidenti bu məsələ ilə bağlı da qəti danışdı: *"Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın".*

## Prezidentdən xəbərdarlıq:

## Hər hansı təhdid yaransa, dərhal məhv ediləcək

### Azərbaycan bölgədə sülh tərəfdarıdır

Dövlət rəhbərimizin müsahibəsindəki bir sıra açıqlamalar Azərbaycanla Rusiya arasındakı əlaqələrin pozulmasına cidd-cəhd göstərən, bunun üçün hər cür təxribatlara əl atan, o cümlədən yalan məlumatlar yayan Ermənistanın rəsmi dairələrinin, ermənipərəst qüvvələrin bu əməllərinə də tutarlı cavab oldu. Prezident İlham Əliyev bəyan etdi ki, Rusiya-Azərbaycan münasibətləri kifayət qədər yüksəksəviyyəli münasibətlərdir. Bütün məsələlər prezidentlər, müdafiə və xarici işlər nazirləri səviyyəsində açıq şəkildə müzakirə edilir: *"Deyə bilərəm ki, bu gün Rusiya-Azərbaycan münasibətlərində hansısa təcili məsələni həll etməklə bağlı bir mövzu da yoxdur. Çünki bu münasibətlər kifayət qədər müsbətdir. Ermənistanın bu təbliğat cəhdləri onlara uğur gətirməyəcək. Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur".*

Azərbaycan Prezidenti Ermənistan-Türkiyə münasibətlərinin normallaşması ilə bağlı son günlər səsləndirilən fikirlərə də münasibət bildirdi və ölkəmizin bütün bölgədə sülh arzusunda olduğunu diqqətə çatdırdı. Dövlət başçımızın fikrincə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması bölgədə sülhü təmin etməyin ən gözəl yolu ola bilər. Ermənistan isə hələ ki, buna razılıq verməyib. *"İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir"*, - deyən dövlətimizin başçısı onu da əlavə edib ki, Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan əleyhinə çıxdı: *"Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq".*

Azərbaycan Prezidenti Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası barədə müddəanın olduğunu diqqətə çatdırdı. Ermənistanın belə bir sərsəm iddiadan əl çəkməsinin, öz konstitusiyasını yenidən işləyib qəbul etməsinin zəruriliyini qeyd etdi. Dövlət rəhbərimizin fikrincə, Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkənin Türkiyə kimi nəhəng ölkəyə qarşı torpaq iddiasında olması psixi xəstəliyə bənzəyir: *"Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub. Bu gün də belədir və Türkiyədən çox müsbət siqnallar gəlir. Amma Ermənistanda bunu gərək çox düzgün dəyərləndirsinlər. Təəssüf ki, İkinci Qarabağ müharibəsindən əvvəlki iki il ərzində Azərbaycan tərəfindən verilən müsbət siqnallar orada yanlış anlaşıldı - bir zəiflik kimi, bir gücsüzlük kimi. Biz, sadəcə olaraq, qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür".*

Prezident İlham Əliyevin fikrincə, Ermənistan Azərbaycanla münasibətləri normallaşdırmaq üçün indi daha çox səy göstərməlidir. Çünki bu, bizdən çox onlara lazımdır. Daim münaqişədə olmaq, qonşularla saxta tarix əsasında gələcək əlaqələri planlaşdırmaq çox yanlış bir addımdır. Ermənistan sərhədlər məsələsində mövcud reallığı dərk etməlidir. Tezliklə Azərbaycanın şərtlərinə əməl edib məsələni yoluna qoymalı, Ermənistanın sərhədinin harada yerləşdiyini hamı bilməlidir. Bu fikirlər müsahibədə geniş şəkildə səsləndirildi.

### Legitim suallar

Prezident İlham Əliyev hazırda Azərbaycan, Rusiya və Ermənistanın baş nazir müavinləri səviyyəsində fəaliyyət göstərən işçi qrupunun fəaliyyətinin önəmini xüsusi qeyd etdi. Dövlət rəhbərimizin fikrincə, hələlik qrupun fəaliyyətində nəticə olmasa da, hər halda bir təmas var. İndiki şəraitdə təmas lazım olan vasitədir ki, bu müzakirələr əsnasında bir çox məsələlər həll oluna bilər: *"Biz Azərbaycanda indi Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlamışıq. Zəngilana həm dəmir yolu çəkilir, həm də avtomobil yolu. İndi hava limanları tikilir. Ona görə hesab edirəm ki, biz öz ərazimizdə bütün işləri iki il ərzində görəcəyik. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər. Yəni biz bunu gözləyirik".*

Azərbaycan Prezidentinin İranın yük avtomobillərinin qanunsuz olaraq Qarabağ bölgəsinə daxil olması barədə suala cavabları da qətiyyətli, təmkinli, eləcə də bu məsələdə kimin haqlı mövqedə olduğunu dərhal göstərən izahedici şərhlər idi. Ölkə rəhbərimiz bir daha göstərdi ki, Azərbaycan bütün davranışlarında, addımlarında məsuliyyətlidir, dostluq əlaqələrinin qorunması prinsiplərinə sadiqdir: *"Birinci dəfə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi nota, üçüncü dəfə postlar - gömrük, sərhəd, polis. Beləliklə, biz Azərbaycan ərazisindən keçən yola artıq nəzarət etməyə başladıq və ondan sonra Qarabağa gedən tırların sayı sıfra endi. İndi baxın, buna gətirib çıxarmaq lazım idimi?"*

Dövlət rəhbərimiz İranın Azərbaycanın sərhədləri yaxınlığında hərbi təlimlər keçirməsi məsələsinə də münasibət bildirdi. Hər bir ölkənin öz ərazisində istənilən hərbi təlimi keçirmək hüququna hörmətini ifadə edərək, eyni zamanda, 30 illik dövrdə, erməni işğalçılarının həmin ərzilərdə olduğu vaxtlarda belə təlimlər keçirməmiş İranın son davranışları ilə bağlı bir sıra legitim suallar da səsləndirdi. Eyni zamanda bir daha bəyan etdi ki, Azərbaycan bölgədə uzunmüddətli əməkdaşlığa zərbə vuran heç bir halın baş verməməsini istəyir: *"Bir daha demək istəyirəm ki, Azərbaycan burada da özünü çox məsuliyyətlə aparır, təmkinlə aparır. Ümid edirik, bizim legitim addımlarımıza emosional reaksiya, yəqin ki, müvəqqəti xarakter daşıyır".*

### Torpaqlarımızın dirçəlişi üçün bütün güclər səfərbər edilib

Azərbaycan Prezidenti qələbədən dərhal sonra işğaldan azad olan torpaqlarımızda aparılan bərpa-quruculuq işlərindən də danışdı. Dövlətimizin müharibə bitər-bitməz vaxt itirmədən bu istiqamətdə dərhal hərəkətə keçdiyini və bununla da ölkəmizin gücünü göstərdiyini bildirdi. Qeyd etdi ki, bu işləri görmək üçün təkcə pul kifayət etməz. Bundan ötrü resurs, kadrlar olmalıdır, heyətlər, texniki imkanlar, səriştə vacibdir. Biz bütün gücləri səfərbər etdik. Prezident İlham Əliyev maraqlı bir faktı nəzərə çatdırdı ki, erməni xalqının nümayəndələri artıq bir neçə dəfə bizim Şuşadakı hərbi mövqelərimizə yaxınlaşıb onların da bərpa-quruculuq işlərinə cəlb olunmalarını xahiş ediblər. Bu, orada işsizlik, səfalət və ümidsiz bir vəziyyətdə ac-yalavac qalmış insanların təbii davranışıdır və Azərbaycan Prezidenti vurğuladı ki, buna müsbət baxırıq, ancaq gərək bunun hüquqi tərəfi tam yerinə otursun.

Biz bir daha müharibənin olmasını istəmirik. Əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa, Azərbaycan müharibəyə başlamayacaq. Prezident İlham Əliyev bunu xüsusi vurğuladı: *"Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur".*

### Türkiyə-Azərbaycan örnəyi

"Anadolu" Agentliyinə müsahibəsində Azərbaycan Prezidenti İkinci Qarabağ savaşından sonra Türkiyə ilə daha yüksək pilləyə qalxmış münasibətlərdən danışdı və cənab Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri ilə bağlı maraqlı bir məqama toxundu: *"Türkiyədə bunu bir çoxları bilir ki, mən savaş bitəndən sonra hörmətli Prezidenti Şuşaya dəvət etdim. O vaxt demişdim ki, O, Şuşaya gəlməyənə qədər oraya heç bir başqa ölkədən heç kim gəlməyəcək. Hətta Türkiyədən gələnlər olmuşdu, oraya getmək istəyənlər olmuşdu. Mən onlara dedim ki, sağ olun, amma gözləyin, Qardaşım gəlsin getsin, ondan sonra yolunuz açıqdır. Şuşa Bəyannaməsinin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir".*

### Kövrək məqamlar

Müsahibənin ən duyğusal anları isə Prezident İlham Əliyev azad edilmiş regionlara səfər edərkən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın telefonun kamerası ilə çəkdiyi kadrlardan, o kadrlardakı qısa yolüstü söhbətlərindən danışarkən baş verdi və dedi: *"...Onlar 30 il həsrət içində idilər və mən gəlmişəm oraya, mən bu evi görürəm, bu binanı görürəm, onlar görmürlər. Onlar bizim gözlərimizlə onu görməlidirlər. Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"*

Azərbaycan Prezidenti bu sözləri deyərkən özü də kövrəldi, ondan müsahibə götürən "Anadolu" Agentliyi əməkdaşını da, bu müsahibənin videogörüntülərini izləyən bütün Azərbaycansevərləri də kövrəltdi. Bu, sevinc, qürur, Vətənə, onun insanlarına sevgi dolu qəhər idi. Arzu edək ki, bundan sonra tarixboyu yalnız Azərbaycan xalqının, dövlətinin sevinc dolu günlərinə kövrələk, qürurlanaq, bu qürur qəlbimizi böyütsün. Acılar, ağır sınaqlar bu yurddan uzaq olsun.

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**

# 9 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il

Bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

❖ ❖ ❖

Düşmən Goranboy, Tərtər, Ağdam, Bərdə, Ağcabədi rayonlarının ərazilərini intensiv atəşə tutur.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun xeyli sayda hərbi texnikasını məhv edir.

Düşmən tərəfindən döyüş meydanında tərk edilən zirehli texnikalar isə bölmələrimiz tərəfindən tam işlək vəziyyətdə ələ keçirilir.

Ordumuzun düşmənin hərbi hədəflərinə və hərbi texnikasına dəqiq zərbələri davam edir.

❖ ❖ ❖

Döyüş əməliyyatları zamanı düşmənin atıb qaçdığı hərbi texnikalar Azərbaycan Ordusunun hərbi texnikasının rəngində rənglənir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində düşmənin xeyli sayda "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

❖ ❖ ❖

Ermənistan ərazisindən Mingəçevir istiqamətinə atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edilir.

❖ ❖ ❖

Düşmənin radioelektron mübarizə vasitələri məhv edilir.

❖ ❖ ❖



Prezident İlham Əliyev xalqa müraciət edərək növbəti müjdələrini verir. Ali Baş Komandan bildirir ki, müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib - Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

İlham Əliyev bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsini tarixi qələbə adlandırır, həmçinin Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını açıqlayır - 16 komanda məntəqəsi, 196 tank, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radiotexniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolakasiya stansiyası, 1 "Kalçuqa" anteni.

Qənimət kimi götürülmüş hərbi texnikalar - 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Ali Baş Komandan bir daha qətiyyətlə vurğulayır ki, artıq status-kvo deyilən məsələ və təmas xətti yoxdur. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz: "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq".

❖ ❖ ❖

Düşmənin atəş mövqeyinə çıxardığı zirehli texnikalar məhv edilib.

❖ ❖ ❖

Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edir.



Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyəti müzakirə edirlər.

❖ ❖ ❖




Prezident İlham Əliyevin "Sky News" və "CNN International" televiziya kanallarında müsahibələri yayımlanır.

İlham Əliyev bir daha Azərbaycana qarşı səsləndirilən ittihamlara faktlarla, sübutlarla cavab verərək deyir ki, həmsədrlərin 28 illik "vasitəçilik" missiyası bir nəticə vermədi. ATƏT-in Minsk qrupunun 1992-ci ildən bu yana passiv formada "fəaliyyət"i bu gün baş verənlərə gətirib çıxardı. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı. Azərbaycan məsələni bu gün özü həll edir.



Prezident həmçinin müharibənin hansı şərtlər əsasında dayandırılmasına da aydınlıq gətirərək dedi ki, danışıqlar münaqişənin siyasi həllinə və işğal olunmuş ərazilərin boşaldılmasına gətirib çıxarmalıdır: "Biz sülh yolu ilə həll istəyirik, amma həll. Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik. İki millət barışmalıdır. Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır".

❖ ❖ ❖

Saat 20:00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən sahəsində yerləşən Azərbaycan Ordusunun müdafiə mövqelərindən Ermənistan ərazisində atışma səsləri və partlayış müşahidə olunur.

Belə ki, Ermənistanın Vardenis rayonunun Günəşli və Ağyoxuş kəndlərində yerləşən düşmən mövqelərindəki hərbi qulluqçular əvvəlcə müxtəlif atıcı silahlardan bir-birinə doğru atəş açmışlar. Bir az sonra isə Günəşli kəndində partlayış baş verir, yanğın başlayır.

Baş verən insidentə Azərbaycan Ordusu bölmələrinin heç bir aidiyyəti yoxdur. Bu təxribat erməni xalqı və beynəlxalq aləmin diqqətinin Ermənistan rəhbərliyinin hərbi və siyasi meydanda uğradığı iflasdan yayındırmaq məqsədi daşıyır.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**





# Qarabağ Dirçəliş Fondunda aparıcı biznes qurumları ilə görüş keçirilib

Qarabağ Dirçəliş Fondunda iri sahibkarlıq subyektlərinin rəhbərləri ilə görüş keçirilib. Ölkədə fəaliyyət göstərən biznes qurumlarının iştirakı ilə keçirilən tədbirdə iqtisadiyyat naziri, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının sədri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri, Müşahidə Şurasının üzvü Muxtar Babayev, Fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev çıxış ediblər.



Vurğulanıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğal olunmuş ərazilərimizin azad edilməsi kimi mühüm missiyanı böyük Zəfərlə başa çatdırıb. Vətən müharibəsindən sonra yeni çağırışlar yaranıb, işğaldan azad edilmiş ərazilərimizin bərpası və dirçəldilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.

Görüşdə fondun yaranma məqsədi, fəaliyyət istiqamətləri barədə iştirakçılara ətraflı məlumat verilib. Qarabağın bərpası istiqamətində görüləcək işlərə dəstək göstərilməsi, cəmiyyətdə ianə mədəniyyətinin geniş təbliği kimi məsələlərin əhəmiyyətindən bəhs olunub.

Tədbir iştirakçıları ilə işğaldan azad edilən ərazilərin bərpası istiqamətində görüləcək işlər, o cümlədən Qarabağ Dirçəliş Fondunun bu sahədə fəaliyyəti barədə geniş müzakirələr aparılıb.

Müzakirələrdə biznes qurumları ilə əməkdaşlığın genişləndirilməsi, dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi, cəmiyyətin həmrəylik göstərərək işğaldan azad edilən ərazilərin bərpası istiqamətində görülən işlərə cəlb olunmasının vacibliyi vurğulanıb.

Bu məqsədlə donor olmayan tədbir iştirakçıları ianə edərək Qarabağda aparılan bərpa və yenidənqurma işlərinə töhfə verməyə dəvət olunub.

Tədbirdə dağıdılmış binaları, yerləyeksan olunan tarixi abidələri əks etdirən "Qarabağda Urbisid" filmi nümayiş etdirilib.

İşğaldan azad olunmuş ərazilərimizdə görülən işlərə dəstək olmaq məqsədilə Qarabağ Dirçəliş Fonduna ianə edən donorlara - "Caspian Drilling Company", "BOS Shelf", "Cinema Plus", "Zeytun Pharmaceuticals", "AS Group Investment", "Bakcell", "Norm", "Paşa Holdinq", "Stevedoring", "Paşa Sığorta", "Paşa Həyat Sığorta", "Embawood", "Modenis", "ANC Group", "Bakelektro", "Baku Cable Goknur", "Grandmart", "Azgranata", "North West Construction", "Tabaterra" şirkətlərinə "İanə sertifikatı" təqdim olunub.

Görüşdə donor şirkətlərlə yanaşı, digər aparıcı biznes qurumlarının - "Azərsun Holdinq", "Veysəloğlu" Şirkətlər Qrupu, "ISR Holdinq", "Tekfen Construction", "Evrascon", "Cahan Holdinq", "ARASH Medical Company", "Avromed", "Azvirt", "Avrora", Azərbaycan Sənaye Korporasiyası, "Aspi-Agro", "OMG international", "Kontakt Home", "Optimal Elektronika", "Best Comp", "Nobel Oil Services" şirkətlərinin rəhbərləri də iştirak ediblər.

Qeyd edək ki, Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid övladları üçün nəzərdə tutulmuş "Hərə bir qəhrəman oldu" layihəsinə start verilib

Oktyabrın 8-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyi, "YAŞAT" Fondunun təşkilatçılığı və Bakı Konqres Mərkəzinin dəstəyi ilə "Hərə bir qəhrəman oldu" layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, DOST Agentliyinin sədri Fərid Məmmədov, "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov, digər rəsmilər və Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri iştirak ediblər.

Tədbir Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun möhtəşəm Zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsinin ildönümü ilə əlaqədar təşkil olunub.

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli qeyd edib ki, Azərbaycan hökumətinin həyata keçirdiyi siyasətin ana xəttini sosial müdafiə tədbirləri təşkil edir. Bu siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı durur: "44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfərdən sonra dövlət idarəçiliyində yeni mərhələ başlayıb. Vətən müharibəsi qəhrəmanlarına, onların ailə üzvlərinə və şəhid ailələrinə diqqət artıb, postmüharibə dövründə dövlət başçısının tapşırığı ilə bir çox mövcud proqramlar genişləndirilib, yeni proqramlara start verilib. Azərbaycan Respublikası nadir ölkələrdəndir ki, müharibə iştirakçılarına, şəhid ailələrinə, qazilərə, müharibədən əziyyət çəkən əhaliyə davamlı dəstək, xüsusi sosial müdafiə və yardım proqramları təqdim olunur. Həmin proqramlar arasında ən vaciblərindən biri şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı proqramıdır. Proqram çərçivəsində cari ildə 3 min mənzilin təqdim edilməsi planlaşdırılır. Onlardan 1600 mənzil təqdim edilib. Bundan başqa, həssas qruplara verilən müavinətlər, təqaüdlər və ya sosial ödənişlər və onların məbləğləri əhəmiyyətli dərəcədə artırılıb. "Vətən Müharibəsi Qəhrəmanı" təqaüdü təsis olunub. Vətən Müharibəsi Qəhrəmanlarına dövlət hesabına mənzillərin verilməsinə başlanılıb".

Nazir müavininin sözlərinə görə, postmüharibə proqramları paketi çərçivəsində sosial ödənişlər, sosial psixoloji və reabilitasiya xidmətləri və məşğulluq proqramları həyata keçirilməkdədir. Ümumilikdə, postmüharibə paketi 26 mindən çox şəxsi əhatə edir. Sosial müdafiə tədbirləri sırasında aktiv məşğulluq xidmətlərinin genişləndirilməsi və müharibə iştirakçılarının aktiv fəaliyyətə qatılması böyük əhəmiyyət kəsb edir. Bu çərçivədə "Məşğulluq marafonu"na start verilib, dövlət və özəl sektoru təmsil edən qurumlar tərəfindən Vahid Məşğulluq Portalına 2100-dən artıq vakansiya yerləşdirilib. Hazırda 600-dən çox insan yaradılmış imkanlardan istifadə edərək işlə təmin olunub. Eyni zamanda bu istiqamətdə peşə təhsili və ixtisasartırma layihələri də icra olunmaqdadır.

V.Nəsirli bildirib ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin fəaliyyətində innovativ müstəvidə də gözəçarpan dinamizm müşahidə olunur. Bu istiqamətdə DOST Agentliyinin fəaliyyəti xüsusi yer tutur: "Hazırda ölkəmizdə 5 DOST mərkəzi fəaliyyət göstərir. Mərkəzlərin fəaliyyət göstərdiyi 2 il ərzində 11 istiqamətdə xidmətlərin sayı 155-ə çatdırılıb, 2 milyondan çox vətəndaşa 535 minə yaxın xidmət göstərilib, 40 minə yaxın elektron müraciət cavablandırılıb. Agentliyin nəzdində fəaliyyət göstərən "Çağrı Mərkəzi" tərəfindən cavablandırılan zənglərin sayı 600 mini keçib, vətəndaş məmnunluğu göstəricisi isə 98 faizə çatıb. Azərbaycanın yeni brendi olan DOST brendinə olan beynəlxalq maraq da artmaqdadır. DOST mərkəzlərinin işğaldan azad olunmuş ərazilərdə də yaradılması nəzərdə tutulur. Azad olunmuş ərazilər arasında ilk mərkəzin Şuşa şəhərində 2022-ci ildə yaradılacağı və növbəti dövrlərdə həmin ərazilərin hər birinin DOST xidmətləri ilə əhatə olunacağı planlaşdırılıb.

Dövlət başçısının iyunda imzaladığı fərmanla vahid əlaqələndirmə mərkəzlərinin yaradılması xüsusi yer tutur. Avqustun 23-dən etibarən Bakı şəhərində DOST mərkəzləri çərçivəsində 7 dövlət qurumunun fəaliyyəti əlaqələndirilməklə müharibədə yaralanan vətəndaşlar və şəhid ailəsi üzvlərinə operativ şəkildə bir pəncərə platforması üzərindən 26 xidmət göstərilir.

Nazirlik və nazirliyin strukturuna daxil olan qurumlar tərəfindən 44 günlük Vətən müharibəsi və Zəfərimizin qeyd edilməsi üçün xüsusi proqram tərtib edilib. Proqram çərçivəsində həssas qruplara aid olan müxtəlif təşəbbüslər yer alıb. Onlardan biri də "Hərə bir qəhrəman oldu" layihəsidir. Təşəbbüs orijinallığı və hədəfin xüsusi seçilməsi ilə fərqlənir. Təşəbbüs və layihə müəlliflərinə təşəkkür edir, layihə qəhrəmanlarına uğurlar arzu edirəm".

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov çıxış edərək bildirib ki, bu kimi tədbir və layihələrin həyata keçirilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və DOST Agentliyi tərəfindən şəhid ailələrinin və onların övladlarının hər zaman dövlət diqqətində olması və qayğısını hiss etməsi məqsədi daşıyır. Onları yaşatmaq, tanıtmaq, hər bir şəhid ailəsinə hörmətlə yanaşmaq hamımızın vətəndaşlıq borcudur.

"Vətən uğrunda canından keçən şəhidlərin ömür yolu hər zaman gənclərə örnək olmalıdır. Hər bir Azərbaycan vətəndaşı öz milli qəhrəmanlarını, şəhidlərini tanımalı, onların və övladlarının keçdiyi həyat yoluna hörmətlə yanaşmalıdır. Bu amalı rəhbər tutaraq DOST Agentliyi "Hərə bir qəhrəman oldu" layihəsini qürurla həyata keçirir. Layihənin ideya müəllifi 4 saylı Bakı DOST Mərkəzinin sosial xidmət məsələləri üzrə sosial agenti, Birinci Qarabağ müharibəsinin şəhidi Eldəniz Nuriyevin qızı Ayla Nuriyevadır. Layihə İkinci Qarabağ müharibəsi şəhidlərinin övladlarına dəstək vermək məqsədilə hazırlanıb. Layihə çərçivəsində Birinci Qarabağ müharibəsi şəhidlərinin övladlarının şəxsi təcrübəsinə əsaslanaraq İkinci Qarabağ müharibəsi şəhidlərinin övladlarına mənəvi dəstəyin verilməsi, onların təhsilinə, gələcək karyerasının planlaşdırılmasına və inkişafına əməli yardım göstərilməsi və həmin fəaliyyətlərin sərfəli şəkildə əlaqələndirilməsi planlaşdırılıb. Layihə şəhidlərin canı, bahasına qəhrəman olduqları, onların övladlarının ailə üzvlərinin həyatda apardıqları mübarizələr və onun nəticəsində mənəvi-psixoloji, eləcə də karyera sahəsində uğur qazanaraq həyatlarının qəhrəmanı olduqları mənasını daşıyır", - deyə DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov bildirib.

"YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov isə çıxışında deyib: "Azərbaycan Respublikasının Konstitusiyasında hər birimizin hüquqları öz əksini tapıb. Onlardan biri də yaşamaq hüququdur. Himnimizdə ifadə olunan "Hüququndan keçən əsgər" misrası məhz yaşamaq hüququndan keçən əsgər və zabitləri nəzərdə tutur. Onlar geridə qoyduqları doğmalarını bir an belə düşünmədən Ana Vətənin çağırışına getdilər. Biz məhz şəhidlərimiz və qazilərimizin hesabına torpaqlarımızı işğaldan azad etmişik. Bizim yeraltı sərvətimiz şəhidlər, yerüstü sərvətimiz isə qazilərdir. Hamımız birlikdə həmin sərvətlərə, onların əmanətlərinə sahib çıxmalıyıq.

"YAŞAT" Fondu şəhidlərimizin ailə üzvlərinə və qazilərimizə 4 istiqamət üzrə dəstək göstərir. Fondun əməkdaşlarının böyük əksəriyyəti də şəhid övladları və qazilərdir. Bizim fəaliyyət istiqamətlərimizdən biri də təhsildir. Şəhid övladları və qazilərlə görüşlər zamanı onlara təhsilin vacib olduğunu xatırladıram. Ölkəmizin parlaq gələcəyini istəyiriksə, gənclərimizin təhsilli olması lazımdır. Görüləcək işlər çoxdur. Xatırladım ki, ötən il sentyabrın 27-dən sonra Azərbaycanda 102 şəhid övladı dünyaya gəlib. Onlar da, digər şəhid övladları da bizlərə əmanətdirlər. İnanıram ki, Vətən müharibəsi şəhidlərinin övladlarına dəstək məqsədilə ərsəyə gətirilən layihə faydalı və uğurlu olacaq".

E.Hüseynov müharibə dövründə olduğu kimi, postmüharibə dövründə də Azərbaycan dövlətinin güclü olduğunu, düşmənin vandallıq və barbarlıqla dağıdıb viran qoyduğu torpaqlarımızda yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini vurğulayıb.

Layihənin rəhbəri, DOST Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri Ruslan Mirzəyev bildirib ki, "Hərə bir qəhrəman oldu" layihəsi 2021-2022-ci ildə həyata keçiriləcək. Pilot layihə olaraq Bakı, Sumqayıt, Abşeron-Xırdalan ərazisində yaşayan şəhid övladlarını əhatə edəcək. Lakin növbəti mərhələlərdə layihənin daha geniş miqyasda həyata keçirilməsi planlaşdırılır. Layihə İkinci Qarabağ müharibəsi şəhidlərinin övladlarının gələcək inkişafı, təhsili, karyerasına dəstək məqsədi daşıyır.

Sonra Birinci Qarabağ müharibəsi şəhidlərinin övladları çıxış edərək öz təcrübələri, həyat yollarında üzləşdikləri çətinliklərə baxmayaraq, əldə etdikləri uğurlardan bəhs ediblər.

# "Cənub qaz dəhlizi"nin təşəbbüskarı İlham Əliyev, aparıcı qüvvəsi Azərbaycandır!

*Əvvəli 1-ci səh.*

1999-cu ildə isə yataq kəşf olunub və artıq 15 ilə yaxındır CQBK vasitəsilə Azərbaycanı, Gürcüstanı, Türkiyəni təhlükəsiz, ahəngdar şəkildə qazla təchiz edir. Belə ki, yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində ilk hasilat 2006-cı ildə əldə olunub.

"Şahdəniz"in nəhəngliyini göstərən faktlardan biri də odur ki, yataq iki fazada işlənir. 2013-cü il dekabrın 17-də "Şahdəniz" konsorsiumu layihənin ikinci mərhələsinin işlənməsi üçün yekun investisiya qərarını elan edib. "Şahdəniz-2"dən hasilata 2018-ci ildə başlanıb. Buradan ildə əlavə 16 milyard kubmetr qaz hasil olunacaq və nəticədə yataq üzrə ümumi hasilat həcmi ildə 26 milyard kubmetrə çatacaq.

"Şahdəniz"də iştirak payları belədir: bp (operator - 28,8 faiz), TPAO (19 faiz), PETRONAS (15,5 faiz), AzŞD (10 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz), Cənub Qaz Dəhlizi Apstrim (6,7 faiz).

Cari ilin birinci yarısında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə 10 milyard standart kubmetr qaz və təqribən 1,9 milyon ton (15,1 milyon barel) kondensat hasil edilib. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 70 milyon (ildə 25 milyarddan artıq) standart kubmetrdir.

"Şahdəniz" yatağının kəşf edilməsi və işlənməsi Azərbaycanın regional və beynəlxalq miqyasda iri qaz təchizatçısı kimi rolunu artırıb. Ölkəmizi ən irihəcmli birbaşa xarici investisiya ilə təmin edib, qarşıdan gələn onilliklər ərzində neft-qaz gəlirlərinin artmasına zəmin yaradıb. Bu layihə Azərbaycanın iqtisadiyyatını getdikcə daha da gücləndirəcək.

"Cənub qaz dəhlizi"nin ikinci seqmenti CQBK-dir. CQBK "Cənub qaz dəhlizi"ni təşkil edən üç kəmərin birincisidir. Boru kəmərinin genişləndirilmiş hissəsi 2018-ci ilin iyun ayından Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlayıb.

CQBK dünya səviyyəli boru kəməridir və təhlükəsiz, etibarlı və səmərəli şəkildə fəaliyyət göstərməklə Azərbaycan qazını regional bazarlara nəql edir. Kəmər Azərbaycanda 443 kilometr, Gürcüstanda 248 kilometr məsafə boyu uzanır. Boru kəməri sisteminə həmçinin Azərbaycanda iki kompressor stansiyası, Gürcüstanda isə iki kompressor stansiyası və iki nəzarət-ölçü qovşağı daxildir.

CQBKŞ şirkətinin səhmdarları bp (28,8 faiz), TPAO (19 faiz), SOCAR və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (16,7 faiz), PETRONAS (15,5 faiz), LUKOIL (10 faiz) və NICO (10 faiz) şirkətləridir. Bu ilin birinci yarısında CQBK-nin gündəlik orta ötürücülük gücü 46,51 milyon kubmetr qaz təşkil edib.

Məlum olduğu kimi, "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində əlavə hasilat həcmlərini qəbul etmək, ildə Türkiyəyə 6 milyard və Avropaya 10 milyard kubmetr mavi yanacaq ötürmək məqsədilə CQBK sisteminin genişləndirilməsi həyata keçirilib. Hacıqabul rayonunun Muğan qəsəbəsi yaxınlığından başlayaraq mövcud kəmərlə yanaşı yeni xətt tikilib. Buradan Gürcüstan sərhədinədək çatan yeni kəmərin uzunluğu 387 kilometrdir. Onun başlanğıcında 1 ərsinləmə, marşrutu boyunca isə 5 siyirtmə stansiyası mövcuddur. CQBK-nin Gürcüstandakı genişləndirmə işlərinə isə bu ölkə ilə Türkiyənin sərhədində yeni kəmərin qısa hissəsi, həmçinin 1 ərsinləmə, 2 kompressor stansiyası, təzyiqi azaldan və ölçən stansiyaların tikintisi daxil idi. Bununla da genişləndirilmiş CQBK "Cənub qaz dəhlizi"nin güclü bir qoluna çevrilib.

Üçüncü seqment - TANAP Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə planlaşdırıldığı vaxt - 2018-ci il iyunun 30-da başlayıb. Ötən müddətdə kəmər qaz nəqlini ahəngdar həyata keçirib.

TANAP-ın salnaməsi qısa da olsa zəngin və maraqlıdır. Belə ki, layihə ilə bağlı Azərbaycan və Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də imzalanıb. Boru kəməri sisteminə dair sazişə isə 2012-ci il iyunun 26-da İstanbulda imza atılıb və sənəd hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməli qoyulub. İstifadəyə verildiyi vaxtdan təxminən il yarım sonra - 2019-cu il noyabrın 30-da TANAP-ın qazı Avropa sərhədinədək çatdıran ikinci fazasının çəkilişi yekunlaşıb.

Prezident İlham Əliyev kəmərin əhəmiyyəti barədə belə demişdir: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

TANAP Türkiyə-Gürcüstan sərhədində genişləndirilmiş CQBK-ya qoşulub və Türkiyədə 1850 kilometrdən çox məsafə boyu uzanır. Bu kəmərin Gürcüstan-Türkiyə sərhədi - Əskişəhər hissəsinin uzunluğu 1350, Əskişəhər - Türkiyə-Yunanıstan sərhədi hissəsinin uzunluğu 480 kilometrdir. Xəttin 19 kilometri isə Mərmərə dənizindən keçir. TANAP öz marşrutu boyu Türkiyənin 20 vilayətini, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincan vilayətlərini arxada qoyur. 878 kilometrlik TAP kəmərinə isə Türkiyə ilə Yunanıstanın sərhədindəki Kipoi məntəqəsində qovuşur. Bir tərəfdən CQBK-ya, digər tərəfdən TAP-a bağlandığı üçün TANAP-ı "Cənub qaz dəhlizi"nin "birləşdirici həlqəsi" də adlandırırlar.Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan TANAP-ın "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" olduğunu deyib.

TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi bp şirkətinə məxsusdur.

TANAP-ın 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetr mavi yanacağı daşımaq gücünə malik olacağı nəzərdə tutulur. Bir daha xatırladaq ki, ilkin mərhələdə TANAP kəməri ilə nəql ediləcək 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə çatdırılacaq.

TAP sonuncu seqmentdir. Vətən müharibəsinin şiddətli döyüşlərinin getdiyi, Azərbaycan Ordusunun düşməni tapdağında olan kənd və şəhərlərimizi bir-birinin ardınca azad etdiyi günlərdə bir qələbənin müjdəsini də iqtisadi sahədən aldıq.TAP-ın tikintisinin yekunlaşması həmin vaxta təsadüf etdi. Bu, Azərbaycanın neft-qaz tarixində qazanılan, uğurla gerçəkləşən qlobal layihələr salnaməsinə yazılan bir qələbə idi. Zəfər ilimizin son günündə - dekabrın 31-də isə TAP Azərbaycan qazını Avropaya çatdırdı. Beləliklə, tikinti işləri dörd il yarımdan çox çəkən layihə vaxtında və müvəffəqiyyətlə tamamlandı.

TAP-ın istifadəyə verilməsi həm də "Cənub qaz dəhlizi"nin tam sistem kimi işə düşməsi deməkdir. Kəmərin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-ın, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

Təməlqoyma mərasimində bildirilmişdi ki, 2020-ci ildən başlayaraq Azərbaycan qazının Avropaya nəqli nəzərdə tutulur. Ona görə də qarşıda qazı Avropa bazarına vaxtında çatdırmaq, tranzit və istehlakçı ölkələrin hər birinin iqtisadi maraqlarının təmin edilməsinə nail olmaq kimi əsas vəzifə dayanırdı. Zaman bu vəzifələrin layiqincə yerinə yetirildiyini göstərdi. "Cənub qaz dəhlizi"nin sonuncu hissəsinin yekunlaşması Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün böyük hadisə kimi dəyərləndirilir.

TAP "Şahdəniz-2" qazını Yunanıstanın və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçirərək İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru səhəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

TAP layihəsinin reallaşması ilə Avropa bazarlarına yeni mənbədən qaz çıxışına şərait yaranıb. Kəmərlə ilk dövrlərdə hər il Avropaya çatdırılacaq 10 milyard kubmetr qazın həcmi sonrakı illərdə 20 milyard kubmetrə qədər artırılacaq.

Xatırladaq ki, TAP xətti İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır.

TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır. Yəni "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradaraq yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə layihəyə qoşulacaqlar. Deməli, "Cənub qaz dəhlizi"nin "qol"larının da olacağı mümkündür, çünki Avropanın Azərbaycan qazına ehtiyacı var. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir.

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artması, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirəcək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bizə kənar "model" lazım deyil

*Əvvəli 1-ci səh.*

Azərbaycan bütün dünyada islamofobiyaya, İslamın mahiyyətinin təhrif edilməsinə, onu terrorla eyniləşdirməyə qarşı ən kəskin şəkildə öz səsini ucaldan dövlətdir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, ICESCO kimi aparıcı təşkilatların fəal üzvüdür, onların nüfuzunun yüksəldilməsinə, İslam mədəniyyətinin inkişaf etdirilməsi və dünyada yayılması işinə öz dəyərli töhfələrini verir. Hələ 2009-cu ildə Bakı şəhəri ICESCO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan edilmişdi. 2018-ci ildə isə bu şərəfli ada Naxçıvan şəhəri layiq görülmüşdü. Bu, ICESCO tərəfindən Azərbaycanın İslam aləmində oynadığı rola verilən yüksək qiymətdir. Bütün bunlar həm də onu təsdiq edir ki, respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət və malik olduğumuz dini tolerantlıq beynəlxalq səviyyədə diqqətlə izlənilir və təqdir olunur.

Ümumiyyətlə, Azərbaycanda dini etiqad və vicdan azadlığı Konstitusiya normasıdır, ölkədə çoxlu saydı dini təşkilatlar fəaliyyət göstərir. Hər kəsin dini ayinləri sərbəst şəkildə yerinə yetirməsi üçün zəruri şərait təmin olunmuşdur. Bu mənada Azərbaycanda sağlam təməllər üzərində qurulan dövlət-din münasibətləri bütün dünyaya nümunədir.

Azərbaycan həm də dünyada dini tolerantlıq məkanı kimi tanınır. Ölkəmizdə müxtəlif dini baxışları olan insanlar vahid bir ailə kimi sülh və əmin-amanlıq içində yaşayırlar. Hər bir dinin daşıyıcısı öz dini ayinlərini azad və sərbəst şəkildə yerinə yetirə bilir.

## Dövlətimizin və xalqımızın öz yolu var

Məhz sağlam dövlət-din münasibətlərinin nəticəsi olaraq Azərbaycanda dünyanın ayrı-ayrı ölkələrində olduğu kimi, İslamın alətə çevrilərək gözdən salınmasına imkan verilməyib və xalqımız dinimizin saflığını hər zaman qoruyub saxlayıb. Əminliklə deyə bilərik ki, Azərbaycanda İslami dəyərlərə bağlılığın, dinin saflığının qorunmasının ən gözəl nümunələri mövcuddur. Cəmiyyətimiz dünyanın bir sıra ölkələrinə bədbəxtliklər gətirmiş dini fundamentalizmi və radikalizmi heç vaxt qəbul etməyib, o cümlədən dinin siyasiləşdirilməsinə heç vaxt imkan verməyib. Bütün bunlar nəticə etibarilə bütövlükdə xalqımızın dini dəyərlərə yanaşması baxımından nümunəvi bir model formalaşdırıb. Ona görə də biz hansısa dövləti, hansısa digər modeli təkrar edə bilmərik. Xalqımızın özünəməxsus adət-ənənələri olduğu kimi, dinə də öz yanaşması var. Bu yanaşmanın əsas göstəricisi ondan ibarətdir ki, Azərbaycan İslamın pak dəyərlərini layiqincə yaşadan nadir dövlətlərdən biridir.

Azərbaycanda bir sıra dövlətlərdə mövcud olan məzhəb problemi yoxdur, tam tolerantlıq mühiti hökm sürür. Məscidlərdə müxtəlif məzhəblərin nümayəndələri birlikdə namaz qılırlar. Müsəlman dünyasında sünni və şiələrin birlikdə namaz qılmalarına demək olar ki, rast gəlinmir. Bir sıra ölkələrdə sünnilərlə şiələr sülh şəraitində yaşasa belə, dini ayinlərini ayrı-ayrılıqda keçirirlər. Onların birgə namaza toplaşmasına dəfələrlə göstərilmiş cəhdlər heç bir nəticə verməyib. Azərbaycanda sağlam və mütərəqqi dini mühitin mövcudluğunun nəticəsidir ki, sünni və şiələr birlikdə namaz qılırlar və bu, nadir rast gəlinən yüksək dini-mənəvi hadisədir.

Lakin o da məlumdur ki, Azərbaycanın uğurlarını həzm edə bilməyən müəyyən xarici siyasi dairələr ölkəmizdəki sabitliyi pozmaq üçün illər boyu din amilindən yararlanmağa çalışıblar, xalqımızın mənəvi dünyagörüşü ilə uzlaşmayan cəfəng iddialarla ölkəmizin dini modelinə qara yaxmağa cəhd göstəriblər. Məsələn, hələ bir neçə il öncə baş örtüyü məsələsini qabartmaqla hər birimizin vicdan azadlığının qarantı olan, dövlət-din münasibətlərini yüksək səviyyədə təmin edən, İslam dəyərlərinə böyük ehtiram göstərən Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasətə qara yaxmağa cəhd göstərən xarici dini-siyasi dairələrin əməlləri xalqımızın gerçək iradəsini əks etdirmədiyindən fiaskoya uğradı.

Hətta respublikamızı sivil, demokratik inkişaf yolundan döndərmək məqsədilə din pərdəsi altında terrorçuluğa da cəhd göstəriblər. Bir neçə il əvvəl Nardaranda baş verənlər bunu təsdiq edir. Əslində, Nardaran hadisəsində dinlə bağlı heç bir məsələ yox idi, yalnız din pərdəsi altında törədilən cinayət əməlləri vardı. Onlar din adı altında ölkəmizi ziddiyyətlər meydanına çevirmək istəyirdilər.

## Azərbaycanın nümunəsi məkrli məqsədlərin qarşısında güclü sipərdir

Görünən həm də odur ki, bəzi xarici dairələr islamın siyasiləşdirilməsinə cəhd göstərirlər. Siyasi islam isə siyasi ambisiyaları din pərdəsi arxasına keçirməkdir ki, bu da islamın əsl ehkamlarının təhrif olunmasından başqa bir şey deyil. Xalqımız İslam dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edir. Onların təhrif olunması yolverilməzdir. Azərbaycan dövlətçiliyinin mövcudluğunu, ölkəmizin yüksəlişini və Vətən müharibəsindəki qələbəsini həzm edə bilməyən dini-siyasi dairələrin İslam dinini alətə çevirmələri heç bir mənəvi çərçivəyə sığmır və bu, İslam dininə edilən ən böyük hörmətsizlikdir.

Ölkəmizdə həyata keçirilən siyasət, dövlət-din münasibətlərinin Azərbaycan modeli xalqın maraqları üzərində qurularaq özünün mənəvi saflığı ilə bütün ziyanlı ideologiyaların, arzuolunmaz dini-siyasi məqsədlərin qarşısını hər zaman alıb. Azərbaycan xalqı hər zaman dövlətçiliyimizin və cəmiyyətimizin əleyinə yönəlmiş əməllərə, din pərdəsi altında təxribatçı fəaliyyətə qarşı barışmaz olacaq. Güclü dövlətçilik, xalq etimadına əsaslanan güclü hakimiyyət, eləcə də insanların dövlətimizin dünyəvi prinsiplərlə inkişafında nümayiş etdirdikləri həmrəylik bütün məkrli niyyətlərin qarşısında həmişə sarsılmaz sipər olaraq qalacaq.

Azərbaycan hüquqi və demokratik yolla, sağlam mənəvi dəyərləri rəhbər tutmaqla inkişaf edən dövlətdir. Bizə nə İran modeli, nə digər ölkələrin modeli lazım deyil. Azərbaycanın öz yolu var. Bu yol dini tolerantlığın ən gözəl nümunəsidir. Bu yol müxtəlif məzhəblərin nümayəndələrini birləşdirərək xalqımızın həmrəyliyini gücləndirir, dünyəvi dövlətçiliyimizin möhkəm dayaqlarını sasılmaz edir. Heç kəs, heç bir qüvvə bu modeli, bu tolerantlığı poza bilməz. Xaricdən özlərinin xoş niyyətli olmayan dini baxışlarını ölkəmizə yönləndirmək istəyənlərin cəhdləri heç bir nəticə verməyib və bundan sonra da verməyəcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan***

# Diplomatik nümayəndəliklərin mətbuat məsələləri üzrə cavabdeh şəxsləri və xarici jurnalistlər Şuşaya səfər ediblər

Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin mətbuat məsələləri üzrə cavabdeh şəxslərin və xarici jurnalistlərin Şuşa şəhərinə səfəri təşkil edilib. Məqsəd həm işğal dövründə Şuşada həyata keçirilmiş qanunsuz fəaliyyətlə bağlı, həm də hazırda aparılan bərpa-quruculuq işləri ilə əlaqədar onları ətraflı məlumatlandırmaqdır.




AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə qala divarlarını ziyarət ediblər. Onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlığı simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Zəfər zamanı Şuşa şəhər mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri ziyarət edilib, işğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırılıb. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Xarici qonaqlar Şuşa şəhərində Xurşidbanu Natəvanın evi, Xan qızı bağı və Xan qızı bulağı olan ərazi ilə də tanış olublar. Məlumat verilib ki, 1832-ci ildə Şuşada anadan olan Xurşidbanu Natəvan Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızıdır. Xalq arasında Xan qızı adı ilə tanınan Xurşidbanu Azərbaycan mədəniyyəti tarixində lirik şair və rəssam kimi şöhrət tapmışdı. O, təkcə yazdığı şeirlərlə deyil, xeyirxahlığı ilə də ad çıxarmışdı. Natəvan kasıblara, kimsəsizlərə əl tutmaqla bərabər, Şuşaya su çəkdirmişdi. Onun çəkdirdiyi bulaq "Xan qızı bulağı" adı ilə məşhur idi.

Bildirilib ki, Xurşidbanu Natəvana məxsus ikimərtəbəli saray kərpic və çaydaşlarından inşa edilib. 1930-cu illərin əvvəllərində Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olan Şuşa Musiqi Məktəbi, 1987-ci ildən isə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xurşidbanu Natəvan adına Qarabağ filialı bu tarixi binada fəaliyyət göstərib. Şuşa şəhəri 1992-ci ildə Ermənistan silahlı bölmələri tərəfindən işğal edildikdən sonra azərbaycanlılara məxsus bir çox tarixi-memarlıq nümunəsi olan tikililər kimi Xurşidbanu Natəvana məxsus olan XIX əsrə aid ikimərtəbəli ev də erməni vandalizminə məruz qalıb. Muzeydə toplanmış yüzlərlə nadir sənət incisi, rəsm əsərləri, xalçalar, miniatürlər, xatirə əşyaları, arxeologiya nümunələri işğalçılar tərəfindən dağıdılaraq qəsb edilib. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti "Xan qızı" bulağı adı ilə məşhur idi. Ermənistanın işğalı altında olduğu müddətdə suyu quruyan bulaq Şuşa işğaldan azad olunandan qısa müddət sonra bərpa edilib.

Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin mətbuat məsələləri üzrə cavabdeh şəxslər və xarici jurnalistlər Xan qızı bağını, Üzeyir bəy Hacıbəylinin buradakı heykəlini də ziyarət ediblər. Qeyd olunub ki, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə 1985-ci ildə Xurşidbanu Natəvanın adını daşıyan bağda heykəli ucaldılıb. Heykəl 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq məhv edilib. 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən yeni heykəl yaradılıb. Bürüncdən hazırlanmış yeni heykəl öz əvvəlki yerində quraşdırılıb. Şuşada dini abidələrin, o cümlədən məscidlərin erməni vandallığına məruz qalmasının şahidi olublar. Saatlı, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa məscidlərinə gələn qonaqlara məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandalizminə məruz qalıb. Ermənilər Şuşada 11 məscid, 1 ziyarətgah və 2 türbəni tamamilə məhv edib, 6 məscid və 2 mədrəsəni isə dağıdaraq yararsız hala salıblar. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Şuşa şəhərində dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi ilə tanış olan qonaqlara məlumat verilib ki, kompleksin tikintisinə 1977-ci ildə başlanılıb və dörd il davam edib. 1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksinin açılışı olub. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid səksənə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarca eksponat məhv edilib, daşınması mümkün olan eksponatlar isə Ermənistana aparılıb.

Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi. Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Avqustun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə muzey-məqbərə kompleksinin açılışı olub.

Qonaqlar səfər zamanı Merdinli məhəlləsini, Molla Pənah Vaqifin büstünü və Cıdır düzünü ziyarət edib, Qazançı kilsəsində aparılan bərpa işləri ilə tanış olub, XVIII əsrə aid Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarayında "Yaddaş. Fotoqrafik Tarix Foto Sərgi"yə baxıb, muğam üçlüyünün ifasında Şuşaya, Qarabağa həsr olunmuş mahnıları dinləyiblər.

# Sağlamlıq mərkəzi kimi tanınan Naftalan tezliklə həm də turizm şəhəri olacaq






Naftalan Şəhər İcra Hakimiyyətində Azərbaycan Turizm Bürosunun (ATB) baş icraçı direktoru Florian Zenqstşmid, Dövlət Turizm Agentliyinin (DTA) Regional turizm inkişafı sektorunun müdiri Elgün Cavadov, ATB-nin Brend və marketinq kommunikasıyaları sektorunun müdiri Fidan Əliyeva, ATB-nin Turizm sənaye və destinasiyanın inkişafının idarə edilməsi sektorunun müdiri İlkin Cavadov, Gəncə Destinasiya Menecment Təşkilatının direktoru Zaur Bayramov ilə görüş keçirilib.

Görüşdə Naftalanın turizm potensialının artırılması, qarşıda görüləcək işlər barədə müzakirələr aparılıb, ATB-nin və DTA-nın dəstək olduğu şəhərdə bir sıra yeni layihələrin həyata keçirilməsinə başlanıldığı vurğulanıb.



ŞİH-nin başçısı Vüqar Novruzov və qonaqlar Naftalanın girişində tanıtma lövhəsinin qarşısında turistlərin marağına səbəb olacaq yeni yaradılacaq məkana, avtomobillər üçün xüsusi dayanacağın və şəhərin digər istiqamətindəki girişində yeni tanıtma lövhəsinin quraşdırılacağı ərazilərə, həmçinin şəhərdə yeni quraşdırılmış istiqamətverici lövhələrə və yaxın zamanda tikintisi planlaşdırılan amfiteatrın yaradılacağı əraziyə baxış keçiriblər. Sonra şəhərin turizm potensialı ilə tanışlıq Turizm İnformasiya Mərkəzində davam etdirilib.

Qeyd edək ki, artıq Naftalanda "Qaşaltı bağları" turizm konsepti üzrə ilkin araşdırma və qiymətləndirmə işlərinə başlanılıb. Qonaqlar bu sahədə görülən işlərlə tanışlıq üçün şəhərin Qaşaltı Qaraqoyunlu kəndinə səfər edərək burada nar bağlarına baxıblar.

Sonda vurğulanıb ki, müalicəvi xüsusiyyətlərinə görə dünyada yeganə olan Naftalan neftinin Azərbaycan brendi olaraq dünyada tanıdılması istiqamətində aparılan işlər Naftalanın dünyanın turizm şəhərlərindən birinə çevrilməsində öz faydasını verəcəyi şübhəsizdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Özü yıxılan ağlamaz

*Əvvəli 1-ci səh.*

Belə ki, baş nazir Vilnüsdə etiraf edib ki, İkinci Qarabağ müharibəsindən yayınmaq üçün rayonlar geri qaytarılmalı idi: "Bu gün çoxları müharibəyə yol verməməkdən danışır. Anlamaq lazımdır ki, müharibədən qaçmağın yeganə şərti ərazilərin qaytarılması olub. Odur ki, müharibəyə yol verməmək üçün biz əraziləri qaytarmalıydıq. Ən azı 5 rayonu. Digər 2 rayon məsələsi başqadır. Əslində isə, gərək qeyd-şərtsiz 7 rayonu qaytaraydıq".

Daha sonra Paşinyan Litvada erməni diasporu ilə görüşü zamanı səsləndirdiyi "Şuşa bədbəxt və qaranlıq şəhər idi" sözlərinin üzərində dayandığını qeyd edib: "Gəlin bu rəqəmləri müqayisə edək, yoxsa buna dəyməz? Bu suallarla nə axtarırsınız? Yoxsa sizə elə gəlir ki, Şuşada yalnız siz olmusunuz? Mən yox idim, başqa insanlar yox idi və heç kim orada vəziyyətin necə olduğunu görmədi? Sanki paralel reallıqlarda yaşayırıq. Bəli, dediklərim doğrudur".

Görünən odur ki, Azərbaycanla sülh danışıqlarının uzadılmasının heç bir zaman ölkəsinə xeyir gətirməyəcəyini baş nazir daha yaxşı başa düşür. Ancaq unutmaq olmaz ki, 2018-ci ildə hakimiyyətə gələn Paşinyan Xankəndidə "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" ağılsız bəyanatını verərək sülhü deyil, müharibəni yaxınlaşdırmış oldu. Rayonları qaytarmaq əvəzinə, Tovuzla sərhəddə hərbi təxribatlara göstəriş verdi, o dövrün müdafiə naziri David Tonoyan isə Azərbaycanı "yeni ərazi uğrunda yeni müharibə" sərsəm tezisi ilə hədələdi.

Litvada verdiyi açıqlamalarla Paşinyan, əslində, erməni cəmiyyətinin on illər boyu yanlış yolda olduğunu, Ermənistan rəhbərlərinin isə səhv strategiya seçdiyini bəyan etdi. Özü isə bir daha anladı ki, Azərbaycanda iqtisadiyyatın dinamik inkişaf etdiyini görən əhalinin qəlbində erməni siyasi və hərbi elitasının çirkin daxili və xarici siyasətinə qarşı dəhşətli bir nifrət var və əgər həmin elita işğalçılıq yoluna qədəm qoymasaydı, Ermənistan Cənubi Qafqazda Azərbaycanın sahiblik etdiyi qlobal layihələrdən kənarda qalmaz, hər il yüz milyonlarla gəlirdən, xoş güzərandan və iqtisadi tərəqqidən məhrum olmazdı.

Yeri gəlmişkən, Ermənistanın iqtisadi böhrandan az da olsa qurtulmaq üçün digər ölkələrdən aldığı borclar da ilbəil artmaqdadır. Həmin borclar isə milyardlarladır və söz yox ki, sabit iqtisadiyyatdan məhrum ac ölkənin borcları 20-30 ilə belə qaytarmaq ehtimalı sıfıra bərabərdir. Bu isə borc verən ölkələrin asılılığına çevrilmək, əksər müəssisələri və yüz minlərlə hektar məhsuldar torpağı hərraca qoymaq, əldə olub-qalanını dəyər-dəyməzinə satmaq və son nəticədə müstəqilliyi itirmək məcburiyyətində qalmaq deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Qaydalara əməl edilsə, koronavirusa qalib gəlmək olar

*Əvvəli 1-ci səh.*




Payızın gəlişi, havanın dəyişkənliyi, nəhayət, Bakı küləklərinin intensivliyi həm də COVID-19 pandemiyasının geniş yayılmasına səbəb ola bilən amillərdəndir. Odur ki, insanlar qəfil gələn və ölümcül virusla bağlı gözlənilməz hallara qarşı mübarizədə daim ayıq-sayıq olmalıdırlar. Məsələnin aktuallığı ilə əlaqədar bir neçə gün bundan öncə Milli Məclisin Səhiyyə komitəsində ənənəvi "Koronavirus infeksiyası (COVID-19) ilə bağlı ölkədəki vəziyyət, vaksinasiya və görülən digər tədbirlər barədə" dinləmələr keçirilib. COVID-19-la mübarizədə dərmanların qeydiyyatı məsələsinin aktuallığı, koordinasiyanın və kommunikasiyanın təkmilləşdirilməsinin zəruriliyi, dezinformasiyaların qarşısının alınması və maarifləndirmə işlərinin artırılması vurğulanıb. Fikir mübadiləsi zamanı bir çox məqamlara aydınlıq gətirilib, insanları narahat edən suallara cavab verilib və bu faydalı dinlənilmənin bundan sonra da davam etdiriləcəyi bildirilib.

Hazırda ölkəmizin bütün şəhər və rayonlarında Nazirlər Kabinetinin sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq koronavirus əleyhinə peyvəndləmə və dezinfeksiya işləri yeni mərhələyə qədəm qoyub. Bu günlərdə ölkəmizdə 12-15 yaşlı yeniyetmələrə də vaksin vurulmasına başlanılıb. Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası bu qərarı qəbul edib. Beləliklə, yaşı 18-dən kiçik olan 12-15 yaşlı uşaqlar da peyvənd olunacaqlar. Yeniyetmələrin vaksinasiyası mərkəzləşdirilmiş şəkildə Bakı Sağlamlıq Mərkəzində aparılacaq.

Təəccüblü görünən odur ki, bəzi valideynlərin uşaqların vaksinasiyası ilə bağlı fikirləri birmənalı deyil. Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Şöhrət Qasımov bildirir ki, COVID-19-la mübarizədə vaksinin vacibliyi barədə dünyada modern tibbə və bunu müdafiə edən həkimlərin fikirlərinə inanmaq lazımdır. "Bu bəladan az itki ilə qurtarmağın yeganə yolu peyvənd edilməkdən - istər uşaq olsun, istərsə də böyük, həkim tövsiyələrinə və Operativ Qərargahın irəli sürdüyü qaydalara ciddi əməl etməkdən keçir. Mən də, övladlarım da, hətta nəvələrim də vaksinin hər iki dozasını etdirmişik.

Fakt göz qabağındadır: COVID-19-un geniş yayıldığı ilk mərhələdə risk qrupuna daxil olanlar və yaşı 60-dan yuxarı vətəndaşlarda bu problem daha çox özünü büruzə verirdi. Süni tənəffüs aparatına qoşulanların 97 faizi, vəfat edənlərin isə 99 faizi peyvənd vurdurmayanlar idi. Ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində ilkin mərhələdə yaşlılar arasında peyvəndləmə uğurla həyata keçirildiyindən bu kateqoriyadan olan insanlar arasında yoluxma və ölüm halları kəskin şəkildə azalmışdır. Yeniyetmələrin peyvənd olunması təqdirəlayiq haldır.

Vaksin olmayanlara və ümumilikdə ona qarşı çıxan valideynlərə deyirəm ki, vaksinə qarşı hansı motivlə çıxıb-çıxmamağınız şəxsi fikrinizdir. Amma xatırladım ki, illər bundan öncə pensilin və müxtəlif peyvəndlər ortaya çıxanda da onlara qarşı olanlar da çox idi. Sonra vəziyyət elə gətirdi ki, insan özündə, eləcə də övladında hansısa narahatlıq hiss edəndə pensilin vurdururdu. Bu gün uşaqlarını peyvənd etdirənlər mütləq mənada çoxluq təşkil edirlər. Bu, düzgün yoldur. İnanıram ki, tərəddüd edənlər çox qısa vaxtda vaksin üçün tibb mərkəzlərinə və poliklinikalara tələsəcəklər".

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov COVID-19-la mübarizə tədbirlərinə diqqətin artırılmasına dair mətbuata açıqlamasında demişdir: "Üçüncü dozanın vurulmasından başqa seçimimiz yoxdur. Peyvənddən bir müddət sonra maksimuma çatan qorunma səviyyəsi vaxt keçdikcə zəifləyə bilər. Buster (üçüncü) doza immunitet reaksiyasını yenidən gücləndirməyi və bununla da peyvəndin effektivliyini artırmağı hədəfləyir. Buster dozanın istifadəsi yüksək risk qrupuna daxil olanlar (tibb işçiləri, yaşı 50-dən yuxarı olan şəxslər, autoimmun xəstəlikləri olan, xroniki xəstəliyi olan şəxslər) üçün məqsədəuyğun hesab olunur və onun əhəmiyyəti böyükdür. Əlbəttə ki, bunlar birmənalı olaraq dünya səhiyyə qurumlarının apardıqları tədqiqatların nəticəsi olaraq ortaya qoyulmuş həqiqətlərdir".

Deputatın fikrincə, hər iki doza vaksinlə peyvəndlənən şəxslərin koronavirusun yeni ştamlarına yoluxma riski var: "Ona görə də buster dozanın alınması sürətləndirilməlidir. Dünya ölkələrində də artıq buster dozanın vurulmasına başlanılıb. Buster doza yüngül yoluxmaları önləyə və virusun yayılmasını, eləcə də COVID-19-la bağlı hospitalizasiya və ölümləri azalda bilər. Üçüncü doza virusla savaşan anticisimləri daha önçəki dozalardan üç dəfə artıq gücləndirir. Bu anticisimlər koronavirusun ştamlarına qarşı güclüdür. Üçüncü doza virusa qarşı güclü qorumanı bərpa edir. ABŞ Xəstəliklərin Profilaktikası və Nəzarəti Mərkəzinin və Böyük Britaniyanın Milli Səhiyyə Xidmətinin məlumatlarına əsasən, buster dozanın istifadəsi ilkin dozadan 6 ay keçmiş risk qruplarına aid olan şəxslər üçün əhəmiyyətlidir. Risk qrupuna yaşlı nəsil, eləcə də yan xəstəlikləri mövcud, yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslər aid edilir".

Rəşad Mahmudov bildirib ki, bu faktlar rəsmi məlumatlar olduğundan inanmaqdan başqa yol yoxdur: "Necə ki ilkin başlayanda normal peyvəndlərin də risk qrupuna və yaşlı insanlara vurulması ön sırada tövsiyə olunurdusa, indi hamı üçün labüddür. Eləcə də buster dozanın da peyvənd olunan bütün insanlara vurulması tövsiyə olunacaq. Cəmiyyətin bəzi üzvləri bunu qəbul etməkdə çətinlik çəksə də, bundan başqa seçim etmək imkanımız yoxdur. Hər kəsə pandemiya şəraitində ortaya çıxan fərziyələrin, əsassız məlumatların yerinə, rəsmi qurumların vermiş olduğu məlumatlardan yararlanmağı tövsiyə edirəm".

Ekspertlərin fikrincə, yoluxmaların artmasının daha bir səbəbi maskanın taxılmaması və ya ondan düzgün istifadə edilməməsi ilə bağlıdır. İctimai nəqliyyatda, iaşə və ticarət mərkəzlərində, qapalı məkanlarda mütləq maskadan istifadə edilməsi və ara məsafəsinin gözlənilməsi vacibdir. Maska taxılmırsa, deməli, virusa yoluxma qaçılmazdır. Hər gün neçə-neçə xoşagəlməz hallarla üzləşən, məyusedici xəbərlər eşidən insanlar artıq görür və inanırlar ki, yoluxma artır, ölüm halları var. Maskanın kütləvi taxılmasına əməl edilsə, vaksinasiya sürətlə aparılsa, təbii ki, yoluxmada azalmalar olacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***







*Təkrar*

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti 110/35/6 kV-luq "205 saylı", "Zığ" və "Puta" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçirilir:

**LOT - 1.** 110/35/6 kV-luq "205 saylı" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 2.** 110/35/6 kV-luq "Zığ" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 3.** 110/35/6 kV-luq "Puta" YS-nin yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik istehsalı işləri üzrə başqa layihələrin və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podraçıya təqdim elədiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 noyabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifi isə **18 noyabr 2021-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların tender təklifləri **19 noyabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İclas onlayn qaydada keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

**Müasir dövrdə ətraf mühitin həddindən artıq çirklənməsi və Yer kürəsi temperaturunun günü-gündən yüksəlməsi ilə bağlı meydana çıxan problemlər, dünya enerji istehsalında 90 faizdən çox payı olan neftdən istehsal edilən karbohidrogen tərkibli yanacaqların yerüstü, dəniz və hava nəqliyyatının, traktorların və iş maşınlarının daxiliyanma mühərriklərində (DYM), qaz turbinlərində və təbii qazla işləyən elektrik stansiyalarında tətbiq edilən mövcud yanma metodunun qüsurları ilə bağlıdır.**

AKTUAL: ALİM-MÜTƏXƏSSİS TƏKLİF EDİR



# Avtomobillərin işlənmiş qazlarının yaratdığı ekoloji fəlakətlərin qarşısının alınmasının effektiv yolu

Keçən əsrin 60-cı illərinədək benzin və təbii qazla işləyən mühərriklərin işlənmiş qazlarının ən zəhərli komponenti dəm qazı, dizel mühərriklərinkinin isə, əsasən, tüstü dumanı - qurum olduğu hesab edilirdi. Bu ziyanlı qazların atmosferə atılan miqdarını azaltmaq üçün bugünədək qüvvədə olan yanma kamerasında yanacaqla havanın yanmadan əvvəl tam - homogen qarışdırılması əsas üsul sayılmışdır. DYM ilə işləyən nəqliyat vasitələrinin, xüsusi olaraq minik avtomobillərinin istehsalının gündən-günə sürətlə artması, işlənmiş qazların ətraf mühitə vurduğu ekoloji ziyan nəticəsində təbiətdə anormal hadisələrin yaranması bu qazların tərkibində daha təsirli digər qazların mövcud olduğunu göstərirdi. Zəncirvari yanma reaksiyaları mexanizminin kəşfinə görə Nobel mükafatına layiq görülmüş akademik N.Semyonovun adını daşıyan Rusiya EA Kimyəvi Fizika İnstitutunun əməkdaşı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, akademik Y.B.Zeldoviç tərəfindən ətraf mühit üçün dəm qazından daha ziyanlı olan azot oksidlərinin olduğunu və yanma zamanı onun yaranma mexanizmini kəşf etmişdir. Bir çox ekoloji və tibb alimlərinin araşdırmaları ilə aşkar edilmişdir ki, avtomobillərdən ətraf mühitə azot oksidləri, benzindoldurma stansiyalarından, elə avtomobillərin özündən ətrafa yayılan yanacaq buxarları və işlənmiş qazlarla atmosferə atılan yanmamış karbohidrogen birləşmələri ilə reaksiyaya girərək hələ üfüqdə olan günəş şüalarının təsiri ilə kimyəvi duman - smoq əmələ gətirir. Yer səthindən 150-200 metr yüksəkliyə qədər şəhər atmosferini zəbt edən smoq canlı və cansız aləm üçün ziyanlı qaz olaraq ağ ciyər xərçəngi və başqa xəstəliklərin yaranmasına, hətta binaların memarlıq bəzəklərinin pozulmasına belə səbəb olur.

İşlənmiş qazların ətaf mühitə atılması ilə ekoloji tarazlığın pozulmasına nəzarəti və bu qazların miqdarının azaldılması yollarını araşdırmaq üçün ABŞ və Avropanın inkişaf etmiş ölkələrində, həmçinin keçmiş Sovet İttifaqında dövlət agentliyi, nazirliklər yaradılmış və elmi-tədqiqat işlərinin aparılması zərurəti gündəmə gəlmişdir. 1962-ci ildən başlayaraq SSRİ-nin süqutunadək Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) Daxiliyanma mühərrikləri kafedrasının əməkdaşı olaraq Qorki Avtomobil Zavodu (QAZ) və SSRİ EA Kimyəvi Fizika İnstitutu ilə təsərrüfat müqavilələri əsasında ortaq elmi-tədqiqat işlərini yerinə yetirmişik. Bu imkan daxilində institutun laboratoriyasında elmi-tədqiqat işləri yerinə yetirmək fürsətimiz olmuşdur.

Əldə etdiyimiz tədqiqat nəticələri ilə bağlı daha dərin elmi bilgilər əldə etmək üçün keçmiş SSRİ ETK-nin qərarı ilə Varşavaya - Polşa Elmlər Akademiyası ilə Varşava Texniki Universitetinin nəzdində fəaliyyət göstərən "Termodinamika və Yanma" ET İnstitutuna elmi ezamiyyətə göndərildim. Burada yanma kamerasının müxtəlif fiziki modelləri ("bomba"), müasir həssas təzyiq sensorları ve osiloskop, alovun yayılmasını göstərən Şileren - sürətli fotoqraf cihazı və s. istifadə olunaraq Kimyəvi-Fizika İnstitutunda aldığım nəticələri təsdiq etmək üçün ətraflı araşdırma aparmaq imkanımız oldu. Bu tədqiqatlarla yanacağın kamerada yer aldığı həcm nisbətinin, başqa sözlə, yanıcı qarışığın homogenlik dərəcəsinin yanma sürəti və təzyiqinin dəyişməsinə, zəhərli və ziyanlı qaz tullantılarının yaranmasına təsirini müəyyənləşdirmək üçün bir sıra təcrübələr apararaq təbəqələşdirilmiş yanıcı qarışığın yanma mexanizminin elmi əsaslarını ortaya çıxara bildik.

1981-ci ildə Leninqrad Texniki Universitetində keçmiş ittifaqın yalnız "İstilik mühərrikləri" mövzusunda texnika elmləri doktoru elmi dərəcəsi verən Elmi Şurasında yeni yanma mexanizminin elmi əsaslarını və QAZ-da istehsal edilmiş ilk prototip mühərrikin test nəticələrini müdafiə etdim. Bununla da mühərrikin yanma odasında homogen yanacaq-hava qarışığının yerinə təbəqələşdirilmiş qarışıqdan istifadə etməyin həm yüksək performans və yanacaq qənaətliliyi əldə etmək üçün, həm də ekoloji çirklənməyə səbəb olan ziyanlı qazların emissiyasının heç bir əlavə filtirləyici sistemdən istifadə etmədən azaldılması üçün daha təsirli olduğu təsdiqləndi. Bu yanma mexanizmin tətbiqi üçün QAZ zavodu ilə yanaşı, Zavolji Motor Zavodu (ZMZ), Tolyati Avtomobil Zavodu (VAZ) və Ulyanov Avtomobil Zavodu (UAZ) ilə SSRİ-nin süqutunadək təsərrüfat müqavilələri əsasında ortaq elmi-tədqiqat işləri apararaq Azərbaycan, Ukrayna, Rusiya ilə yanaşı, xarici ölkələrdən - Hindistan, İraq və KXDR-dən gödərilmiş aspirantların yetişdirilməsində istifadə edildi.

Məlum olduğu kimi, Ümummilli Lider Heydər Əliyev hələ SSRİ vaxtı Azərbaycanda avtomobil sənayesinin yaradılması üçün uzun müddət mübarizə aparmış, nəhayət, Sovet İKP MK Siyasi Bürosunun qərarı ilə Gəncə Avtomobil Zavodunun açılmasına nail olmuşdur. 1992-ci ildə fəaliyətə başlaması planlaşdırılan zavodda istehsal ediləcək avtobillərdə Moskva Mərkəzi Avtomotor İnstitutunun (NAMİ) təklif etdiyi dizel motoru ilə yanaşı, bizim ixtiramız əsasında prototipi QAZ zavodunda hazırlanmış ikimərhələli yanma mexanizmi ilə çalışan benzinli mühərrikin də tətbiqi nəzərdə tutulmuşdu. Bu mühərrik SSRİ ETK-nin qərarı ilə AzTU, Kimyəvi-Fizika İnstitutu və QAZ adından ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya və Yaponiyada patentləndirilmişdir. Patentlər elan olunar-olunmaz, bu əqli mülkiyyəti satın almaq üçün ABŞ avtomobil nəhəngi FORD və Avstriyanın AVL şirkətləri, necə deyərlər, qapımıza qədər gəldilər. Məlumdur ki, SSRİ-nin süqutu ilə inşası qurtarmaqda olan Gəncə Avtomobil Zavodu fəaliyyətə başlaya bilmədi və ildə 120 min avtomobil istehsalı proqramı yarı yolda qaldı.

Təxmini olaraq keçən əsrin 80-cı illərində benzinlə çalışan avtomobillərin zəhərli və ziyanlı işlənmiş qazlarının standartın tələb etdiyi səviyyəyə qədər azaltmaq üçün üçyollu katalitik konvertolu səsbatırıcısının kəşfi və istehsalı başladıqdan sonra təklif etdiyimiz yanma mexanizmin tətbiqi yanacaq sistemində karbüratorun əvəzinə yanacağı birbaşa silindirə püskürdəcək nasos-forsunka sistemi tələb olunduğu üçün sənayeçilərin marağının azalmasına səbəb oldu. Çünki bu sistemin tətbiqi üçün heç də az olmayan yatırım və vaxt tələb olunduğu halda, mövcud olan mühərriklərdə heç bir dəyişiklik etmədən üçyollu katalitik konvertorlu səsbatırıcını avtomobilə bağlamaq çox sadə bir iş olduğu və belə səsbatırıcıların geniş miqdarda istehsalını mənimsəmiş şirkətlərin yaranması bizim təklif etdiyimiz yanma mexanizminə olan marağı sıfra endirdi. Lakin hələ keçən əsrin sonlarından etibarən konvertorlu səsbatırıcının çox da effektiv olmadığı aşkar edildi. Belə ki, konvertorun hər üç katalizatorlarının maksimum effekt verməsi üçün səsbatırıcıda işlənmiş qazların temperaturunun ən az 400-450 °C olması tələb olunur. Bunun üçün isə mühərrikin bütün yük rejimlərində yanma kamerasında yanıcı qarışığın tərkibini göstərən hava artıqlıq əmsalı 1 həddini aşmamalıdır, yəni yanıcı qarışıq kasıblaşdırılmamalıdır. Bu isə mühərrikin yanacaq sərfini artırmaqla yanaşı, işlənmiş qazların tərkibindəki karbon qazının miqdarının maksimum həddə çatmasına səbəb olur. Dünyada aparılan tədqiqatlarla sübut edilib ki, zəhərləyici təsiri olmayan karbon qazının atmosferdə miqdarının artması Yer kürəsində temperaturun yüksəlməsinə və Antarktidada buzlaqların əriməsiylə getdikcə okeanın səviyyəsinin qalxaraq ətraf ölkələrin su altında qalmalarına səbəb ola bilər.

Yeri gəlmişkən, 2021-ci il avqustun 10-da BMT-nin İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Komissiyasının hesabatında vurğulandığı kimi, son 20 il ərzində Yer kürəsinin temperaturu 1,1 dərəcəyə qədər artmışdır. Hesabatda xüsusi olaraq vurğulanır ki, əgər asmosferə atılan karbon qazının miqdarı kəskin azaldılmasa, Yer kürəsinin bir çox şəhərləri, o cümlədən Venesiyanın tamamı, İstanbulun isə yarısı su altında qala bilər. Bu xəbərdarlıq Bakı, Lənkəran və digər sahilyanı şəhərlərimiz üçün də keçərli həyəcan siqnalıdır.

Nisbətən ağır yanacaqlarla çalışan müasir dizel mühərriklərində işlənmiş qazların tərkibində olan ziyanlı tüstü dumanını azaltmaq üçün də yanacaq-hava qarışığının homogen hala gətirilməsi effektiv üsul hesab edilir. Bunun üçün BOSCH, SIEMENS və DELPHI kimi məşhur şirkətlər tərəfindən son 15-20 ildə istehsalı mənimsənilmiş Common Rail (Ortaq Yollu) elektron yanacaq püskürmə sistemi geniş istifadə olunur. Sistemin çox dəlikli (5, 8, hətta 12) forsunkalarının köməyi ilə 1500-2500 bar təzyiqlə porşen üzərindəki "açıq" tipli yanma kamerasına püskürülən yanacağın mikrotoz halına gətirilərək sıxılmış hava ilə mümkün qədər homogen qarışdırılması təmin edilir. Bununla mühərrikin performans və yanacaq qənaətliyinin artırılması, işlənmiş qazlarla atmosferə atılan tüstü (qurum) dumanının xeyli azaldılması təmin edilsə də, yanma zamanı yaranan azot oksidlərin miqdarı işlənmiş qaz emissiyası standartlarının tələb etdiyi müasir səviyyədən dəfələrlə yüksək olur. Bunun səbəbi çoxdelikli forsunkadan yanacağın püskürmə təzyiqi artdıqca alışmanın gecikmə müddəti ərzində mikrotoz halında yığılan yanacağın miqdarı da artaraq daha çox yanacağın anidən partlama xarakterli öz-özünə alışmasıdır. Nəticədə yanma təzyiqi yüksək sürətlə qalxaraq yanmış qazların temperaturunu yüksəldir və hava ilə silindirə sorulmuş azotun oksidləşmə reaksiyalarını, Y.B.Zeldoviç nəzəriyyəsində ispat edildiyi kimi, sürətləndirərək işlənmiş qazlarla atmosferə atılan azot oksidləri qazlarının miqdarını artırır.

Dizel mühərriklərində də işlənmiş qazların tərkibindəki ziyanlı qazların miqdarını standartın tələb etdiyi səviyyəyədək azaltmaq üçün üçyollu katalitik konvertor tətbiq edilir. Lakin bu mühərriklərdə yaranan azot oksidlərinin miqdarı daha çox olduğu üçün bu səsbatırıcıya SGR sistemi adlandırılan amonyak (NH3) tərkibli özəl maye püskürtmək də tələb olunur. Elektron idarəetmə proqramına sahib olan SGR katalitik konvertorunun tətbiqi mühərrikin istehsal və istismar maliyətlərini ən az 50 faiz artırmaqla yanaşı, çox keçmədi ki, SGR sisteminin də atmosferin çirklənməsinin azaldılmasında təsirinin yetərsiz olduğu aşkar edildi. Bunun ən bariz örnəyi Volsvagen alman şirkətinin ABŞ-da texnoloji yenilik kimi böyük səs çıxarmaqla qurduğu dizel motorlu minik avtomobillərini istehsal edən zavodunun bütün dünyaya aşkar olmuş skandalı ola bilər. 10 ildən artıq bir zaman ərzində fəaliyyət göstərən zavodun istehsal etdiyi avtomobillərinin işlənmiş qazlarının guya ABŞ Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA) standartına tam cavab verdiyi iddia edilirmiş. Lakin EPA-nın apadığı monitorinqlə aşkar olundu ki, Volsvagen şirkətinin fəaliyəti sayəsində ABŞ-ın atmosferində azot oksidlərinin miqdarı ildən-ilə yüksəlmişdir. Bunun səbəbini araşdıran EPA özəl qurğu ilə Volsvagen markalı dizel avtomobillərinin həm stasionar laboratorya şəraitində, həm də yolda hərəkət zamanı işlənmiş qazlarının tərkibi ölçülərək aşkar olunur ki, mühərrikin elektonik "beyninə" edilən xüsusi müdaxilə hesabına bu ölçülərdə böyük fərq mövcuddur. Belə ki, Volsvagen - VW PASSAT markalı avtomobilin laboratoriyada azot oksidin ölçümü 127, yolda hərəkət zamanı isə 620 mg/km olmuşdur, yəni 4,9 dəfə daha yüksək. Məlumdur ki, Volsvagenin bu saxtakarlığı onun başına böyük bəla gətirmişdir: Şirkət 70 milyard avro məbləğində cərimə olunmuş, satılmış bir milyona qədər avtomobil geri qaytarılmışdır. Üstəlik, zavodun fəaliyyəti də dayandırılmışdır.

EPA Almaniyada istehsal edilən başqa marka dizel mühərrikli minik avtobillərinin də eyni yolla saxtakarlıqlarını aşkar etmişdir. Məsələn, BMV-də (2016 istehsalı) azot oksidinin ölçüsü laboratoriyada 154, yolda hərəkət zamanı 563 g/km-3,655 dəfə yüksək, Mersedes avtomobilində (2016-cı il istehsalı) laboratoriyada 154, yolda hərəkət zamanı 553 mg/km, yəni 3,6 dəfə daha yüksək olduğu aşkarlanmışdır. Hazırda Volsvagenlə yanaşı, Peugeot, Renault, Nissan və s. şirkətlərin dizel mühərrikli avtomobillərinin azot oksidləri ilə zəngin olan işlənmiş qazları zəhərli kimyəvi duman yaratdığı üçün istehsalları dayandırılmaq ərəfəsindədir. Bu şirkətlərin istehsal etdikləri benzinlə işləyən avtomobilləri də yanacaq sərfinin və işlənmiş qazlarla atmosferə atılan karbon qazının çox olması ilə seçilir. Ona görə də Avropanın Paris, London, Düsselldorf və s. kimi mərkəzi şəhərlərində dizel və benzinlə çalışan avtomobillərin istifadəsi tədricən azaldılır.

Beləliklə, həm benzinli, həm də dizelli avtomobillərdə üçyollu katalitik konvertorlu səsbatırıcılarının təsirinin yetərsiz olması səbəbindən ətraf mühitin çirklənməsinin günü-gündən daha da sərtləşməsi, atmosferdə karbon qazının miqdarının artması ilə Yer kürəsi temperaturunun artması zəminində əvvəlcə Tokioda, sonra isə 2015-ci ilin dekabrında Parisdə 195 ölkə nümayəndələrinin qəbul etdikləri ilk qlobal və qanuni olaraq məcburi sayılan Qlobal İqlim Sazişinə imza atıldı. 21-ci əsrin ilk böyük çoxtərəfli müqaviləsi olan sazişdə hökumətlər tərəfindən qlobal istiliyin orta səviyyəsinin 2 dərəcədən aşağı səviyyədə qalması və artımın 1,5 dərəcəyə qədər məhdudlaşdırılması, iqlim dəyişikliyinin risk və təsirlərinin əhəmiyyətli dərəcədə azaldılması barədə uzun müddəti əhatə edəcək qərar qəbul edildi. Sazişdə ətraf mühitin çirklənməsinin pik həddə çatmaması üçün ən uyğun texnologiyaları ən qısa müddətdə tətbiq edərək tullantıların vaxt itirmədən azaldılması tələb olunur.

Paris sazişinə imza atmış Azərbaycan bu tələbləri yerinə yetirərək ekoloji təsirinə görə krizis dövrü yaşayan qlobal avtomobil sənayesinin yenidən dirçəlişi üçün öz qəti sözünü deməyə qadirdir. Bunun üçün 45 il AzTU-nun Daxiliyanma mühərrikləri kafedrasının əməkdaşları və tələbələrinin, eləcə də 20 il dəvətli professor olaraq İstanbul Texnik Unvesitetinin Makina fakültəsinə bağlı "Motorlar və Taşıtlar" bölümü və tələbələrinin iştirakı ilə Türkiyənin Avtotraktor Sənayeçiləri ilə dövlət dəstəkli elmi-tədqiqat işlərini yerinə yetirməklə qazandığımız bilik və təcrübə yetərlidir. Qazandığımız bu bilik və təcrübə tam məsuliyyətlə onu deməyə imkan verir ki, qlobal avtomobil sənayesinin dirçəlişi yenə də daxiliyanma mühərrikləri ilə bağlıdır. Məşhur rus motorçu alimi Sannikovun dediyi kimi, daxiliyanma mühərriklərinin sonunun çatdığını iddia edənlərin dünyanın sonunun çatdığını iddia edənlərdən heç bir fərqi yoxdur.

Məlumdur ki, dünya enerji istehsalında 90-95 faiz payı olan daxiliyanma mühərriklərini 160 il bundan əvvəl kəşf olunmasına baxmayaraq, faydalı iş əmsalına görə hazırda əvəz edə biləcək başqa bir güc qurğusu yoxdur. Yanacaq olaraq isə təbii qaza daha çox üstünlük verilməlidir. Məlumdur ki, bu qazın ekoloji keyfiyyəti yüksək olmaqla Yer kürəsində ehtiyatı maye yanacaqlarla müqayisədə bir neçə dəfə artıqdır.

Türkiyədə 20 illik fəaliyyətimlə Ford-Otosan, Fiat-Tofaş, Başak Traktor, MOTOSAN, TÜMASAN, TÜLOMSAŞ, Anadolu Motor firmalarının və Arifiye Tank Palet Fabrikasının istehsal etdikləri müxtəlif ölçülü avtotraktor, lokomotiv, gəmi və tank mühərriklərinin təkmilləşdirilməsi ilə bağlı dövlət dəstəkli elmi-tədqiqat və yerli sənayədə tətbiqi üçün texnoloji altyapının hazırlanması sahəsində İstanbul Texnik Universiteti (İTU) əməkdaşları və tələbələrinin iştirakı ilə çalışmaq fürsətim olmuşdur. Buradakı fəaliyyətimin ən diqqətəlayiq nəticəsi olaraq İTU və TÜMOSAN şirkəti ilə ortaq çalışmalarımız ilə dünyada bir ilk olaraq TÜMASAN traktorlarının 100 faiz maye qaz yanacağı - LPG ilə işləyə bilmə üsulunun - yeni üstün motor texnologiyasının sənayedə tətbiqi oldu. Türkiyə patenti ilə qorunan bu üsulun əsas fərqli cəhəti porşen üzərindəki yanma kamerasının təxmini olaraq bir yarısında zəngin tərkibli yanıcı qarışığın, digər yarısında isə sadəcə havanın yer alması ilə yanma mexanizminin iki mərhələ şəklində cərəyan etməsi təmin edilir. Simvolik olaraq "MR-Proses" adlandırılan bu yanma mexanizmi ilə işləyən mühərrikli TÜMASAN traktorları bir çox sərgilərdə dünya sənayeçilərinin marağına səbəb olmuş və bu texnalogiyanın satın alınmasına maraq göstərilmişdir. Hətta 2019-cu ilin ortalarında Niderlandın məşhur Rolls-Royce gəmi şirkətinin məsul nümayəndələri bu çalışmamız haqqında SAE dərgisində (ABŞ) dərc olunmuş məqaləmizlə tanışlıqdan sonra məni İstanbulda ziyarət edərək bu üsulla ağır gəmi dizel motorlarını təbii qazla işləməyə çevirmək sahəsində müştərək çalışmaq təklifi etmişlər. Lakin mən artıq Prezident İlham Əliyevin "Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncamı ilə tanış olduğuma görə fəaliyyətimi 2020-ci ildən etibarən Azərbaycanda davam etdirməyə qərar verdiyim üçün onların uyğun bilərlərsə, Bakıya gəlmələrini təklif edirəm.

Məlumdur ki, "Azərmaş" ASC-də "MADE IN AZERBAIJAN" brendi ilə məhsul istehsal etməklə Azərbaycanı regionun avtomobil istehsalı sənayesi mərkəzinə çevirmək strategiyası qəbul edilmişdir. Neft sənayesi qədər əhəmiyyətli olan bu strategiyanın həyata keçirilməsi ilə Azərbaycan nəinki iqtisadi cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə yüksələcək, həm də biz üstün intellektual səviyyəli xalq olaraq özümüzü dünyaya daha yaxından tanıtdıracağıq.

Azərbaycanın avtomobil istehsalı sahəsində bu möhtəşəm strategiyanı uğurla həyata keçirmək üçün keçən il mühərrikçi elm adamı kimi elmi-tədqiqat layihəsi hazırlayaraq hökumətə təqdim etmişəm. Bu lahiyələrdən biri "Azərmaş" ASC-nin istehsalı olan Khazar (Xəzər) avtomobilinin Peugeot tipli mühərrikinin "MR-Proses" yanma mexanizmini tətbiq etməklə modernizə edib işlənmiş qazların yüksək ekoloji təmizliyi və az yanacaq sərfi ilə dünya səviyyəsində seçiləcək bir avtomobilin ərsəyə gətirilməsinə həsr edilmişdir. LPG yanacağı ilə işləyən TÜMASAN traktor mühərrikindən fərqli olaraq bu layihədə özel cüt sorma klapanları, silindr başlığı və sorma kollektoru olan mühərrikin layihələndirilməsi nəzərdə tutulmuşdur. Bu konstruksiya İTU-də qurduğumuz özel laboratoriyada təksilindrli prototipinin hərtərəfli sınağı aparılmış və çoxsilindirli motor variantlarının layihələndirilməsi üçün lazımi parametrlər və texnoloji altyapı təyin edilmişdir. Sınaqlarda olduqca önəmli olan başqa bir keyfiyyət də aşkar edilmişdir: benzinin oktan sayından asılı olmayaraq, mühərrikin sıxma dərəcəsini detonasiya qorxusu olmadan optimal hədlərdə (14/1 - 16/1) götürmək mümkündür. Yəni sıxma dərəcəsi dizelin sıxma dərəcəsi səviyyəsində olan bu mühərrikdə heç bir əlavə konstruktiv dəyişiklik aparmadan həm qığılcımla alışma - Otto prinsipi (benzin və qaz yanacaqlarından - CNG, LNG və LPG istifadə etməklə), həm də özü-özünə alışma - dizel prinsipi ilə (dizel yanacağından istifadə etməklə) yüksək performans və yanacaq qənaətliyi və çox az miqdarda ziyanlı qaz emissiyası ilə işləmə imkanı əldə edilir. Bu keyfiyyət daxiliyanma mühərrikləri tarixində ilk dəfə əldə olunmuş nailiyyət sayılır. Yanma nəzəriyyəsi sahəsində elmi kəşf səviyyəsində olan bu texnoloji yeniliyi patentləmək üçün müvafiq sənədlər Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinə təqdim edilmişdir.

Onu da qeyd edək ki, təqdim etdiyim elmi-tədqiqat layihələri Energetika və İqtisadiyyat nazirliklərində müzakirəyə çıxarılmalı idi. Lakin layihələrin müzakirəsi koronavirus pandemiyasına görə müvəqqəti təxirə salınmışdır. Ümidvaram ki, bu bəşəri bəla səngiyəndən sonra bütün dünyanı maraqlandıran və Azərbaycan patenti ilə qorunan yeni mühərrikin layihələndirilməsi və istehsalı ilə əlaqədar çalışmalara başlamaq mümkün olacaqdır. Bununla həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycanda qabaqcıl avtomobil sənayesini inkişaf etdirmək arzusu reallaşacaqdır.

***Rafiq MEHDİYEV,***
***texnika elmləri doktoru, professor,***
***Beynəlxalq KEYS Akademiyasının (ABŞ) və Beynəlxalq Avtomobil Mühəndisləri Cəmiyyətinin - SAE (ABŞ) üzvü***

9 OKTYABR ÜMUMDÜNYA POÇT GÜNÜDÜR

# "Məktub, səni ad eylərəm"...

## Təsəlli verən, belə misralı bayatı ilə başlayan ürək sözləri yolları qısaldar, uzağı yaxın edərdi



*"Məktub, səni ad eylərəm,*
*Poçta əmanət eylərəm,*
*Qardaşıma yetməsən,*
*Bil ki, qiyamət eylərəm..."*

Belə intizar dolu məktublar, adətən, qəriblikdə qardaşı, atası, istəklisi, bir sözlə, doğması olan qadınlarımız, qızlarımız - ana-bacılarımız tərəfindən yazılardı. Belə məktublar İkinci Dünya müharibəsinə gedib qayıtmayanların arxasınca göz yaşları ilə də az yazılmayıb. O müdhiş illərin şahidlərini bu gün barmaqla göstərmək olur. Lakin, bu gün də belə məktublar yazılır, həm də qərib ellərə yox, elə öz Vətənimizin keşiyində dayanıb düşmənin bəd niyyətlərinə sinəsini gərən oğullara...

Bəs nədən belə bir gün təsis edilib?

Mənbələr göstərir ki, Ümumdünya Poçt Günü Ümumdünya Poçt İttifaqının yaranma tarixi ilə bağlıdır. Ümumdünya Poçt İttifaqı poçt əlaqələrini təmin etmək və təkmilləşdirmək məqsədilə 1874-cü il oktyabrın 9-da İsveçrənin paytaxtında 22 ölkənin nümayəndələrinin imzaladığı Bern müqaviləsi ilə beynəlxalq təşkilat kimi təsis olunub. 9 oktyabrın Ümumdünya Poçt Günü kimi qeyd olunması ilə bağlı qərar isə 1969-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən ÜPİ-nin konqresində qəbul olunub.

192 ölkəni özündə birləşdirən Ümumdünya Poçt İttifaqının baş qərargahı Berndə yerləşir. Yarandığı vaxtdan ötən illər ərzində çox böyük tarixi inkişaf yolu keçmiş ÜPİ bu gün dünyanın, demək olar ki, bütün ölkələrini özündə birləşdirməklə, təkcə poçt sahəsində deyil, həm də beynəlxalq aləmdə vacib rolu olan və digər beynəlxalq təşkilatlarla sıx əlaqəli şəkildə işləyən bir quruma çevrilib. O, həm də siyasi bir təşkilat olmaqla, BMT-nin xüsusiləşdirilmiş idarəsi kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bir çox beynəlxalq təşkilatlarla yanaşı, 1993-cü ilin aprel ayında ÜPİ-yə də üzv qəbul olunub. ÜPİ üzvü olduğu qısa zaman ərzində Azərbaycan poçtu ölkənin digər sahələrində olduğu kimi, çox sürətli inkişaf yolu keçmiş və fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində mühüm uğurlar əldə edib.

Azərbaycan poçtunun yaranma tarixi 200 ildən də artıqdır. Belə ki, Azərbaycanda poçt rabitəsi Səfəvilərin hakimiyyəti dövründə (XVI əsr) inkişaf etməyə başlayıb. Müasir formada poçtun yaranması isə XIX əsrin birinci qərinəsinə təsadüf edir. 1818-ci il iyunun 1-də Gəncə şəhərində ilk poçt kontoru açılıb.

1861-ci ildə ilk dəfə olaraq Xəzər dənizi ilə Qafqazın və İranın Rəşt, eləcə də Astarabad limanları arasında dəniz poçt mübadiləsi yaranıb. 1863-1872-ci illərdə İran tranzit ticarətinin müdafiəsi məqsədilə Tiflis və Culfa arasında poçt rabitəsi qurulub. Culfada poçt şöbəsi yaradılaraq, İranla Azərbaycan arasında ilk beynəlxalq məktub mübadiləsi təsis edilib.

Azərbaycanda poçtun dəmir yolu nəqliyyatı ilə daşınmasına 9 may 1883-cü ildə Bakı-Tiflis,1900-cü ildə isə Bakı-Dərbənd arasında başlanılıb.

1918-ci il oktyabrın 6-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibində Poçt və Teleqraf Nazirliyi yaradılıb.

Azərbaycan poçtunun ən çətin və həm də şərəfli dövrü İkinci Dünya müharibəsi illərinə təsadüf edir. Bu illərdə xüsusilə poçtalyonların fədakarlığını qiymətləndirmək lazımdır. Həmin dövrdə poçt işçilərinin üzərinə ikiqat məsuliyyət düşürdü. Ona görə ki, poçt göndərişlərinin həcminin artması və əsgər məktublarının vaxtında ünvanlara çatdırılması bütün mənalarda məsuliyyət və həm də iradə tələb edirdi.

XX əsrin sonunda keçmiş SSRİ-nin dağılması və respublikamızın müstəqilliyini bərpa etməsi ilə poçt rabitəsinin inkişafında da yeni mərhələyə start verildi. 1997-ci il yanvar ayının 1-dən etibarən poçt rabitəsi elektrik rabitəsindən ayrılaraq müstəqil bir qurum kimi fəaliyyətə başladı. Bununla da poçt rabitəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. 1997-ci ildə "Azərpoçt" İstehsalat Birliyi kimi işini davam etdirdi.

1997-ci ilin mart ayında poçt rabitəsinin qısamüddətli "Dirçəliş və inkişaf proqramı" qəbul olunub. Həmin ilin dekabr ayında isə "1998-2003-cü illər üçün poçt rabitəsinin inkişaf konsepsiyası" təsdiq edilib.

Ölkənin milli poçt operatoru olaraq, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti hazırda respublika ərazisində ən geniş xidmət şəbəkəsinə malik olmaqla, əhalinin bütün təbəqələrinə və eləcə də hüquqi şəxslərə münasib qiymətlərlə ənənəvi və qeyri-ənənəvi poçt xidmətlərinin və poçt-maliyyə xidmətlərinin göstərilməsini həyata keçirir.

Respublikada milli poçt operatoru olan "Azərpoçt" MMC ilə yanaşı, 60-dan çox özəl poçt operatoru vasitəsilə hüquqi və fiziki şəxslərə sürətli və kuryer poçt xidmətləri göstərilir.

2010-cu ildə Azərbaycan Mərkəzi Bankı tərəfindən milli poçt operatoruna maliyyə xidmətlərinin göstərilməsi üzrə lisenziya verildikdən sonra "Azərpoçt" MMC Beynəlxalq ödəniş sistemləri olan SWIFT-ə, 2011-ci ildən "MasterCard" ödəniş sisteminə, ölkə daxilində isə XÖHKS-ə, AZİPS, HÖP-ə və digər ödəniş sistemlərinə qoşularaq bu sistemlərin imkanlarından istifadə edir.

"Azərpoçt" MMC-nin beynəlxalq sahədəki uğurlarından biri də ÜPİ-nin EMS Kooperativi tərəfindən sürətli poçt xidmətlərinin keyfiyyəti üzrə dünyanın 160-dan artıq poçt operatoru arasında keçirilən yarışlarda "Azərekspresspoçt" RM-in ardıcıl 9 dəfə qızıl səviyyəli sertifikatına layiq görülməsidir.

Hazırda "Azərpoçt" MMC-nin 60-dan artıq poçt filialı, 7 rabitə qovşağı, 4 törəmə müəssisə, 1500-dək poçt şöbəsi və 83 poçt agentliyi mövcuddur.

Poçt daşımalarını sürətləndirmək üçün "Azərpoçt" MMC və geniş beynəlxalq aviadaşıma imkanlarına malik "Silk Way" aviaşirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb və 2016-cı ilin iyul ayından fəaliyyətə başlanıb. "Azərpoçt" MMC tərəfindən poçt kimi emal olunaraq MDB və dünyanın 15 ölkəsinə (ABŞ, Almaniya, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, Fransa, İran, İsrail, İtaliya, Lüksemburq, Niderland, Rusiya, Türkiyə, Ukrayna) bağlamalar daşınır və çatdırılır.

Hazırda layihə üzrə fəaliyyətin genişləndirilməsi məqsədilə Çində, Koreya Respublikasında və Sinqapurda ekspress daşıyıcı kimi fəaliyyət göstərən digər şirkətlərlə də danışıqlar aparılır. Yaxın zamanlarda daha iri həcmlərdə e-kommersiya məhsullarının Azərbaycan üzərindən xarici ölkələrə daşınması və çatdırılması gözlənilir.

Eyni zamanda "Şəbəkə" mərkəzlərində lokal və beynəlxalq ödəniş kartlarının, icbari sığorta, elektron imza, zərf, marka, açıqca və aviabiletlərin satışı, pulköçürmələri, büdcə, kommunal, Dövlət İpoteka Fondu üzrə ödənişlər, mobil cihazların qeydiyyatı həyata keçirilir. Mərkəzlərdə müştərilər həm də xüsusi özünəxidmət terminallarından istifadə edə bilirlər. "Smart Pay" - ödəniş sistemi vasitəsilə bir çox xidmətlər üzrə ödəniş etmək mümkündür. "Şəbəkə" mərkəzlərinin yaradılmasında əsas məqsəd yüksək standartlara uyğun xidmət göstərilməsi, vətəndaşların rahatlığının təmin edilməsi, əlavə vaxt itkisinin qarşısının alınması, şəffaflığın təmin edilməsidir.

Poçt ən etibarlı və keyfiyyətli xidmətləri olan bir qurum kimi tanınır. Ona görə də onlara etibar edin.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanından (əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310-07-70 (daxili 2011) e-mail: **asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. **Tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması.**

İştirak haqqı: 500.00 (beş yüz) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.*
*6. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.*
*7. İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).*
*8. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır.*
*9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır).*
*10. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.*
*11. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **16.11.2021-ci il saat 18:00-a** qədər tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24.11.2021-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **25.11.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması məqsədi ilə *təkliflər sorğusu elan edir*

**LOT - 1.** *Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması*

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdır. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05)

**İştirak haqqı - 2000.00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN:1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h:AZ03NABZ01350100000000002944**
**SWIFT-IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 60 bank günü qüvvədə olmalıdır.*
*3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.*
*5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.*
*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.*
*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*
*8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd.*
*9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.*
*10. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd.*
*11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.*
*12. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).*

**İxtisas uyğunluğu sənədləri:**

*a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;*
*b) Malgöndərənin kadr imkanları;*
*c) Malgöndərənin texniki imkanları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **25 oktyabr 2021-ci il saat 12:00-dək** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev 17 ünvanına (əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **26 oktyabr 2021-ci il saat 12:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin görülməsinin satın alınması məqsədi ilə *təkliflər sorğusu elan edir*

**LOT - 1.** *Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin görülməsinin satın alınması*

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05)

**İştirak haqqı - 2000.00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT-IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 60 bank günü qüvvədə olmalıdır.*
*3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.*
*5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.*
*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.*
*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.*
*8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd.*
*9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.*
*10. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd.*
*11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.*
*12. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).*

**İxtisas uyğunluğu sənədləri:**

*a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;*
*b) Malgöndərənin kadr imkanları;*
*c) Malgöndərənin texniki imkanları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **25 oktyabr 2021-ci il saat 11:00-dək** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev 17 ünvanına (əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **26 oktyabr 2021-ci il saat 11:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti 110/35/6 kV-luq "Salyan" Yarımstansiyası, 110/35/10 kV-luq "Yevlax" Yarımstansiyası, 110/35/10 kV-luq "Ucar" Yarımstansiyası, 110/35/10 kV-luq "Masallı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT - 1.** 110/35/6 kV-luq "Salyan" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 2.** 110/35/10 kV-luq "Yevlax" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 3.** 110/35/10 kV-luq "Ucar" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

**LOT - 4.** 110/35/10 kV-luq "Masallı" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması üzrə iştirak haqqı - 2 000 (iki min) manat

İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN:9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Azad Məmmədov , telefon: 490-09-27, 598-05-56;

Tenderdə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik istehsalı işlər üzrə başqa layihələrin və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
*- sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
*- iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
*- iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları);*
*- iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 noyabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **25 noyabr 2021-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **26 noyabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İclas onlayn qaydada keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***

# "Milli Hematologiya və Transfuziologiya Mərkəzi" publik hüquqi şəxs "222441-əsas fondlara xidmət haqqı xərcləri" üzrə liftlərin illik xidmət haqqının *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar aşağıdakı telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər: +994512507053

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 08.10.2021-ci il saat 16:00-dan 28.10.2021-ci il saat 10:00-dək qəbul olunur.

**Ünvan: Mirəli Qaşqay küç., 145.**
**rtm.muhasibatliq@gmail.com**

***Tender komissiyası***

# "Bakı Toxucu" QSC-nin səhmdarlarının nəzərinə

23 noyabr 2021-ci il saat 12:00-da "Bakı Toxucu" QSC-nin səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

- Səhmdar cəmiyyətin 2020-ci il üzrə maliyyə məsələlərinin müzakirəsi.
- Digər məsələlər.

**Ünvan: Bakı şəhəri, Bülbülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi 47.**
**Telefon: (012) 458-14-21.**

***İdarə Heyəti***

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri işlərinin satın alınması üçün *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 200 (iki yüz) manatdır.

İşirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri **28 oktyabr 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **05 noyabr 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri **10 noyabr 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**NAZİM AĞAMİROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5611
Sifariş 1872
Qiyməti 40 qəpik